

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Turizm sahəsində pandemiyadan sonrakı bərpa prosesi hansı sürətlə inkişaf edir?



10

SƏS

№ 236 (6919)

23 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Çin-Azərbaycan:

## Ənənəvi dostlar və tərəfdaşlar



5

# Fransanın yürütdüyü siyasətin PƏRDƏARXASI





6

"Heydər Əliyev ideyalarının təntənəsi: şanlı Zəfərdən yeni zirvələrə"



3

ABŞ vətəndaş müharibəsinə sürüklənir



7

Hansı ailələr dağılmağa məhkumdur?



13

Ər-arvad maşınlarını etibarnaməsiz sürə bilər?



16

Komitə ailələri qorumaq istəyir, yoxsa dağıtmaq?



10

# Dirçələn, yenidən qurulan Qarabağ!

*Azərbaycan Prezidenti İlham Əliyev Şuşa və Xocalı rayonlarında olub*

**Azərbaycan Prezidenti İlham Əliyev dünən Şuşa rayonundakı "Saxsı" bulağında olub. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.**

Bildirildi ki, bulaq Şuşa şəhərinin şimal-qərb hissəsində, təxminən 5 kilometr məsafədə, Şuşa-Laçın yolunun üzərində yerləşir. Bulağın suyu tərkibinə görə çox keyfiyyətli olduğu üçün daim şuşalıların və şəhərin qonaqlarının diqqət mərkəzində olub. İnsanlar bu əraziyə istirahət etmək üçün üz tutublar. Əvvəllər qayadan süzülən su sonradan metal boruya salınıb və daim axır. Bulaq hazırda mövcuddur. Şuşa şəhəri işğal olunanadək bulağın üstündə restoran inşa edilib. Bəzi məlumatlara görə, bulaq metal boruya salınmamışdan əvvəl qayadan çıxan su qədim saxsı borudan süzülüb gəldiyi üçün bulağa insanlar arasında "Saxsı" bulaq adı verilib və bu ad günümüzə qədər gəlib çatıb. Şuşa şəhəri işğal ediləndən sonra ərazi uzun illər baxımsız qalıb, restoranın binası yarıuçuq vəziyyətə salınıb.

Prezident İlham Əliyev dünən həmçinin Şuşa rayonundakı "Turşsu" bulağında olub. Dövlətimizin başçısı bulaq ərazisinə baxış keçirdi.

Məlumat verildi ki, meşənin daxilində mineral su mənbəyi olan "Turşsu" bulağı Şuşa şəhərindən 17 kilometr cənub-qərbdə, Şuşa-Laçın yolundan bir qədər aralı, Zarıslı çayının sahilində 1700 metr hündürlükdə çıxır. Bu ərazi uzun illər şuşalıların və şəhərin qonaqlarının istirahət etdikləri sevimli məkanlardan biri olub. Yay aylarında ətraf rayonlardan buraya insanlar gələr, yaxınlıqdakı yamaclarda çadırlar qurar, dincələr, bulağın suyundan istifadə etməklə sağlamlıqlarını möhkəmləndirərdilər.











Qeyd olundu ki, Şuşa rayonunun ərazisində bir neçə belə su mənbəyi var. Turşsu qəsəbəsinin yaxınlığındakı bu bulağın suyu fasilələrlə - təxminən bir saatdan da artıq müddətdən bir axır. Bulağın suyu faydalı mikroelementlərlə, əsasən karbon, hidrogen-karbonad, maqnezium, natrium, kalsiumla zəngindir. Minerallaşma dərəcəsi 2,4 qr/l, temperaturu 5-10 dərəcə C-dir. Bu su ürək-damar, qan azlığı, qaraciyər, öd yolları, öd kisəsi, mədə-bağırsaq və böyrək xəstəliklərindən əziyyət çəkənlər üçün müalicəvi xüsusiyyətlərə malikdir. Bu su, həmçinin orqanizmdə maddələr mübadiləsi pozulmalarını nizama salır, daxili orqan xəstəliklərinə qarşı profilaktik təsir göstərir.

Rayon ərazisində suyu minerallarla zəngin olan digər bulaqlar da var. Bu bulaqlardan karbon turşulu-hidrokarbonatlı-natriumlu "narzan" tipli mineral sular axır. Bu müalicəvi sulardan Şuşanın sanatoriyalarında həm süfrə suyu kimi, həm də vanna qəbulunda istifadə olunub.

Dövlətimizin başçısı həmçinin Şuşa rayonunun Turşsu qəsəbəsində olub. Dövlətimizin başçısı qəsəbənin ərazisinə baxış keçirdi. Qeyd edək ki, qəsəbə Şuşa şəhərindən təxminən 17 kilometr məsafədə, Şuşa-Laçın yolunun kənarında yerləşir. Turşsu qəsəbəsi işğaldan əvvəl Şuşa rayonunda Şuşa şəhərindən sonra azərbaycanlıların ən sıx yaşadığı ikinci yaşayış məntəqəsi olub. Qəsəbə 1992-ci il mayın 15-də işğal edilib. 1989-cu ildə aparılan siyahıyaalmaya əsasən, qəsəbədə 755 nəfər yaşayıb. Burada fərdi evlər, tibb məntəqəsi, xəstəxana, mədəniyyət evi, kitabxana, məktəb, televiziyaötürücü qurğu, elektrik yarımstansiyası, uşaq bağçası, musiqi məktəbi, klub və digər binalar mövcud olub. Əhalinin məşğulluğu əsasən kənd təsərrüfatı sahəsində təmin edilib. Sadalanan infrastruktur işğal dövründə tam dağıdılıb.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Hazırda Turşsu qəsəbəsində 353 ailə - 1403 nəfər qeydiyyatdadır.

Prezident İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Naxçıvanlı kəndində olub. Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirdi. Dağətəyi ərazidə yerləşən bu yaşayış məntəqəsini vaxtilə Naxçıvandan köçüb gəlmiş ailələr salıblar. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Naxçıvanlı kəndi separatçılardan təmizlənib. Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Pircamal kəndində olub. Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

Pircamal kəndi dağətəyi ərazidə yerləşir. Kəndin adı keçmişdə burada mövcud olmuş Pircamal piri ilə bağlıdır. Tarixi mənbələrə görə, bu yaşayış məntəqəsini qədim Beyləqandan köçüb gəlmiş ailələr salıblar. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Pircamal kəndi separatçılardan təmizlənib.

Prezident İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Xanabad kəndində də olub. Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib. Dağətəyi ərazidə yerləşən Xanabad kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində kənd separatçılardan təmizlənib.

Xanabad kəndi qədim yaşayış məskənlərindən biri kimi tanınır. 1990-cı ildə kənddə kooperativ zavodun tikintisi zamanı inşaatçılar tərəfindən qədim qəbir aşkar edilib. Həmin qəbirə baxış keçirilərkən insan cəsədindən əlavə, qədim döyüş və məişət əşyaları aşkarlanıb. Müvafiq təhlillərdən sonra bu əşyaların eramızdan əvvəl XII-XI əsrlərə aid olduğu müəyyən edilib.

# "Heydər Əliyev ideyalarının təntənəsi: şanlı Zəfərdən yeni zirvələrə"

## YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib

**Dekabrın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev ideyalarının təntənəsi: şanlı Zəfərdən yeni zirvələrə" mövzusunda tədbir keçirilib.**

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş 2023-cü il Azərbaycan xalqının və dövlətinin tarixinə müstəsna əhəmiyyət daşıyan bir dövr kimi həkk olunmuşdur: "Ulu Öndərin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə mühüm nailiyyətlər qazanılmış, Azərbaycanın iqtisadi və siyasi imkanları genişlənmiş, qlobal arenada mövqeyi daha da möhkəmlənmişdir. 2020-ci ildə əldə edilmiş möhtəşəm Qələbə ilə qaytardığımız bütün torpaqlarımızda suverenliyimiz də tam bərpa olunmuş, Azərbaycan bayrağı digər ərazilərdə olduğu kimi Xankəndidə də ucaldılmışdır. Beləliklə, Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə möhtəşəm uğurlar qazanaraq dövlətimizin və








xalqımızın qarşısında duran ən ümdə vəzifəni də yerinə yetirmiş - ölkəmizin ərazi bütövlüyü və suverenliyi təmin edilmişdir".

Onun sözlərinə görə, Heydər Əliyev yolunun Müzəffər davamçısı kimi Prezident İlham Əliyevin sosial-iqtisadi tərəqqiyə, ölkəmizin hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin güclənməsinə, milli həmrəyliyin möhkəmlənməsinə yönəldilmiş uzaqgörən siyasəti Azərbaycanın haqq işinin Zəfərlə yekunlaşmasında - tarixi ədalətin bərpasında həlledici rol oynamışdır: "Artıq Ümummilli Lider Heydər Əliyevin ideyalarının təntənəsinin təzahürü olan müasir, qalib və qüdrətli Azərbaycan şanlı Zəfərdən yeni zirvələrə doğru inamla irəliləməkdədir. Bu gün gözəl əhval-ruhiyyədə biz Azərbaycanın gələcək inkişafı, Azərbaycan xalqının rifahı naminə növbəti qələbələrin astanasındayıq. Ulu Öndərin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün də məhz Ümummilli Lider Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində cənab Prezident müasir, müstəqil, suveren, bütöv Azərbaycanı, yeni Azərbaycanı qurmuşdur. Artıq Azərbaycan dünyada inkişaf diyarı, multikultural dəyərlərin və tolerantlıq mühitinin hökm sürdüyü sabitlik adası, beynəlxalq dialoq və əməkdaşlıq məkanı, qalib və qüdrətli dövlət kimi tanınır".

Tahir Budaqov vurğulayıb ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycanın bütün uğurları və möhtəşəm qələbələri bilavasitə Heydər Əliyevin zəngin dövlətçilik irsi ilə bağlıdır: "Ona görə də "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim xalqıma, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub",- deyən Ümummilli Lider haqlı olaraq Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin qurucusu adlandırılır, onun siyasi irsi və ideyaları milli-mənəvi sərvətimiz kimi olduqca yüksək dəyərləndirilir".

YAP Sədrinin müavini bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində istər Azərbaycanda, istərsə də respublikamızın hüdudlarından kənarda keçirilən çoxsaylı tədbirlər də Ümummilli Liderin zəngin dövlətçilik irsinin, əbədişayar ideyalarının öyrənilməsi və təşviqi baxımından mühüm əhəmiyyət daşımaqla yanaşı, regionun lider dövlətinə çevrilmiş və Zəfər zirvəsinə yüksəlmiş Azərbaycanın inkişaf yolunun tədqiqi kontekstində böyük önəm kəsb edir: "Ulu Öndərin siyasi mirası olan, onun ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası tərəfindən də "Heydər Əliyev İli" çərçivəsində çoxsaylı elmi-praktik konfranslar, aksiyalar, görüşlər, müsabiqələr və digər bir sıra tədbirlər keçirilmişdir. Xalqımızın qəlbində əbədiyaşarlıq qazanmış Ulu Öndərin vaxtilə müdrikcəsinə ifadə etdiyi "Nə qədər ki Azərbaycan var, mən də varam" kəlamı bütün tədbirlərimizin devizi olmuşdur".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, bu gün Azərbaycanın gücünü müəyyən edən əsas strateji amil Prezident İlham Əliyevin tarixi ənənələri, milli dəyərləri, əxlaqi-mənəvi normaları daim üstün tutan, eyni zamanda, mütərəqqi çağdaş reallıqlara hər zaman açıq olan Ümummilli Lider, dahi şəxsiyyət Heydər Əliyevin zəngin irsindən bəhrələnərək onun siyasətini keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirməsidir: "Tarix təsdiqləyir ki, Azərbaycanda Heydər Əliyev siyasətinə, Heydər Əliyev yoluna alternativ yoxdur. Bu yol yalnız müstəqillik illərimizin deyil, hələ Sovetlər dönəmində, 1969-cu ildən başlayaraq qət edilən şərəfli yoldur. Şübhə yoxdur ki, "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" ,- deyən və vədini yerinə yetirərək xalqın inam və etimadını doğruldan, Vətənə, xalqa və dövlətə sədaqət andını, ata vəsiyyətini şərəflə yerinə yetirən, sözü imzası qədər dəyərli olan qətiyyətli Lider - Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımızın rifahının daha da yüksəldilməsinə yönəlmiş siyasəti ilə Azərbaycana hələ böyük uğurlar, yeni zəfərlər, zirvələr bəxş edəcəkdir. Bundan sonra da qazanılacaq bütün nailiyyət və qələbələr Heydər Əliyev siyasətinin dönməzliyinin, əbədiliyinin təsdiqi, cənab İlham Əliyevin Zəfər yürüşünün davamı, partiyamızın gücünün növbəti ifadəsi olacaqdır".

"Fürsətdən istifadə edərək tədbirin təşkilində göstərdiyi sponsorluq dəstəyinə görə XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin Müşahidə şurasının sədri cənab Fərhad Qaraşova təşəkkürümü bildirir, hər birinizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı və Prezident, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında doğma Azərbaycanımızın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram",- deyə Tahir Budaqov vurğulayıb.

Çıxış edən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, "Heydər Əliyev ili" çərçivəsində müxtəlif sahələrdə, fərqli mövzularda tədbirlər keçirilir: "Azərbaycanda müasir bazar prinsiplərinə uyğun iqtisadiyyatın və sahibkarlığın inkişafı məhz Ümummilli Liderin adı ilə bağlıdır. Ümummilli Lider biznes nümayəndələri ilə daim sıx təmasda olur, onların qayğıları ilə müntəzəm maraqlanır, tövsiyə və məsləhətlərini verirdi. Təsadüfi deyil ki, 25 aprel - Sahibkarlar Günü Ulu Öndərin yerli sahibkarlarla 2002-ci ildə keçirdiyi tarixi görüşün əsasında təsis edilib".

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda iqtisadiyyatın və sahibkarlığın inkişafı istiqamətində gördüyü genişhəcmli işləri tam şəkildə təsəvvür etmək üçün onun ali idarəetmə sahəsində təqribən 30 illik bir təqvim dövrünü əhatə edən fəaliyyətinə nəzər salmaq lazımdır.

*Ardı Səh. 4*

Əvvəli Səh. 3

# “Heydər Əliyev ideyalarının təntənəsi: şanlı Zəfərdən yeni zirvələrə”

## YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib



1969-cu ildə Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra Azərbaycanın həyatında dönüş başladı. Görülən tədbirlər nəticəsində ötən əsrin 70-ci illərinin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf göstəricilərinə görə SSRİ-nin ən qabaqcıl respublikalarının sırasına daxil oldu.

Orxan Məmmədov qeyd edib ki, SSRİ-nin süqutu nəticəsində ötən əsrin 90-cı illərinin əvvəlində postsovet məkanında başlamış transformasiya prosesləri Azərbaycanda daha gərgin məcrada davam edirdi: ”Sadəcə bir neçə rəqəm ilə ölkə iqtisadiyyatının o zamankı durumunu izah etmək olar. Belə ki, bu dövrdə sənayedə illik geriləmə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşlarında isə 40 faizə çatmışdı. İnflyasiya min faizlərlə ölçülürdü, manatın məzənnəsi 100 dəfədən çox azalmışdı. Məhz belə bir dövrdə Ulu Öndər Heydər Əliyevin xalqın iradəsi ilə hakimiyyətə qayıdışı Azərbaycan xalqının XX əsrdə ikinci dəfə əldə etdiyi tarixi imkandan faydalanaraq müstəqil




dövlətçilik arzusunu əbədi reallaşdırmasını təmin etdi. 1993-2003-cü illər ərzində Heydər Əliyevin dövlətçilik doktrinası əsasında quruculuq strategiyası uğurla həyata keçirildi və hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında keyfiyyətcə yeni səviyyədə davam etdirilməkdədir. Bu məqsədlə müxtəlif strateji proqramlar icra olunur, sahibkarlar üçün geniş fiskal stimullar tətbiq edilir, real sektora investisiyalar təşviq edilir, bizneslərin inkişafı üçün çoxsaylı dəstək mexanizmləri və yeni təşkilati-hüquqi modellər hazırlanır. Son 20 ildə Azərbaycanda milli iqtisadiyyatın real həcmi 4 dəfə, ixrac isə 15 dəfədən çox artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz bəndi yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Ölkənin strateji valyuta ehtiyatları 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib. Özəl sektorun ÜDM-də payı 83 faizi keçib, məşğulluqda isə 78 faizə yaxınlaşıb. Ötən 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyarda yaxını qeyri-neft sektoruna yönəlib”.

KOBİA-nın İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, ölkəmizdə özəl sektorun dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir: ”Prezident İlham Əliyevin sahibkarlığın inkişafına göstərdiyi diqqətin nümunəsi olaraq Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. KOBİA-nın fəaliyyəti məhz sahibkarlıq sahəsində müasir dövrün çağırışlarına uyğun yeni təşkilati modellərin yaradılmasına və sahibkarlığın təşviqinə yönəldilib. Nəzərə alsaq ki, ölkəmizdə fəaliyyət göstərən biznes subyektlərinin 99,6 faizini KOB subyektləri təşkil edir, o zaman qeyd edə bilərik ki, ölkənin dayanıqlı inkişafı kiçik və orta biznesin inkişaf səviyyəsi ilə sıx bağlıdır. KOB subyektlərinin yeni bölgüsü meyarlarının tətbiq edildiyi, eləcə də KOBİA-nın fəaliyyətə başladığı 2018-ci ildən ötən 5 il ərzində KOB subyektlərinin sayı 54 faizdən çox artaraq 378 minə yaxınlaşıb. Bu dövr ərzində KOB-ların qeyri-neft ÜDM-də payı 23,5 faizdən 27,2 faizə, onlar tərəfindən yaradılmış əlavə dəyərin həcmi isə təqribən 2 dəfəyədək artaraq 9,8 milyard manatdan 17,2 milyard manata çatıb”.

Onun sözlərinə görə, Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Qələbə, Qarabağ bölgəsinin işğaldan azad edilməsi və konstitusiya quruluşunun ölkəmizin bütün ərazisində bərpa edilməsi də bizneslərin inkişaf üçün əlavə mənbələr açmış oldu. KOBİA mandatı çərçivəsində və dövlətin siyasətinə uyğun olaraq bizneslərin Qarabağa qayıtması məqsədilə zəruri işlər həyata keçirir və qarşıdakı illərdə də prioritet istiqamətlərdən biri kimi bu sahədə fəaliyyəti davam etdirəcək.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlər göstərdiyini deyib: ”Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı,




inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi. Heydər Əliyev hələ 1969-cu ildə ilk dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlişi zamanı ölkəmizin müstəqilliyini öncədən görürdü və onun siyasəti məhz bu istiqamətə yönəlmişdi. Ölkəmizin iqtisadi qüdrətinin artırılmasına, hərbi hazırlığa böyük önəm verilməsini, bu məqsədlə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasını və yerli hərbi kadrların yetişdirilməsi məsələsinə ayrılan diqqəti xüsusi qeyd etmək lazımdır. Ulu Öndərin bütün addımları Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı”.

Dilarə Seyidzadə qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Bütün bunlar gənc nəsil üçün həm dövlətçilik ənənələrini dərk etmək, həm də üzərlərinə düşən məsuliyyəti anlamaq baxımından bir nümunədir. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. ”Mən ”Dəmir yumruq” əməliyyatı ilə torpaqlarımızın işğaldan azad olunmasını xüsusi vurğulamaq istəyirəm. O yumruqda xalqımızın birliyini görürəm. Bu, milli birlikdir, Heydər Əliyevin arzusunun reallıqda təsdiqidir. 44 gündə Azərbaycan bütün dünyaya göstərdi ki, qalib ölkədir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. O, xalqını, dövlətini elə böyük məhəbbətlə sevirdi ki, Azərbaycana İlham Əliyev kimi dövlətini, xalqını sevən Lideri bəxş etdi. Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə hansı töhfəni verə bilərik, bu barədə hər kəs düşünməlidir. Onda




Azərbaycanın gələcəyi hər zaman parlaq, firavan olacaq. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Hər birimiz bu işə dəstək olmalıyıq. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycan bütün sahələrdə inkişaf edir. Ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətə çevrilməsi üçün görülən işlər Heydər Əliyev siyasətinin təntənəsidir”,- deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

”Azərbaycan Bayrağı” ordenli şəhid Nurlan Mustafayevin anası Rəhilə Ramazanova bildirib ki, Heydər Əliyev Azərbaycanın xilaskarı, memarı və qurucusudur: ”Heydər Əliyev dünənimizdə, bu günümüzdə, sabahımızdadır. Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində misilsiz rolu olan, xalqımızın milli qürur mənbəyinə çevrilən bir liderdir. Heydər Əliyev ideyaları əbədiyyətə qədər Azərbaycana yol göstərəcək. Bu gün Azərbaycan Ulu Öndərin böyük uzaqgörənliklə istiqamətləndirdiyi və mayak kimi işıqlandırdığı yolla gələcəyə inamlı addımlarla irəliləyir. Bu gün Azərbaycanın daxili və xarici siyasəti Heydər Əliyevin müdrik ideyaları əsasında, Heydər Əliyev dəsti-xətti ilə yürüdülür. Heydər Əliyevin zaman baxımından reallaşdıra bilmədiyi bircə arzusu qalmışdı. O, Azərbaycanı bütöv, Qarabağı azad görmək istəyirdi. Ulu Öndər bu arzusunun reallaşmasını da daim arxalandığı xalqının dəstəyi ilə özü qədər inandığı İlham Əliyevə vəsiyyət etdi. Bu böyük məsələnin çözümü də böyük müdriklik, böyük uzaqgörənlik, böyük əzm və qətiyyət tələb edirdi. Nəyi, nə vaxt və necə edəcəyini yaxşı bilən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin sentyabrında bir çağırışı ilə bütün xalqı və ordunu ayağa qaldırdı. Rəhbər-xalq-ordu birliyi cəmi 44 gün ərzində böyük Zəfərə imza atdı, 30 ilə yaxın işğalda qalan torpaqlarımızı düşməndən azad etdi. Bu Zəfərlə yalnız 30 ilin deyil, əsrlərin qisası alındı. Bu Zəfərlə Azərbaycan bir dövlət, bir millət kimi özünü bütün dünyaya tanıtdı, gücünü, qüvvətini təsdiqlədi”.

”Uzun illərdir ki, Heydər Əliyevin qurub-yaratdığı Yeni Azərbaycan Partiyasının fəallarındanam. Mən eyni zamanda Vətən müharibəsinin qəhrəman şəhidlərindən biri, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Nurlan Mustafayevin anasıyam. Mən daim Vətənimi, bayrağımı, xalqımı sevdim və övladlarımı da bu ruhda böyütdüm. Nurlan üçün Vətən Ana demək idi, torpaq toxunulmazlıq demək idi. Bu amalla da Vətənə 11 il qüsursuz xidmətindən sonra Vətən müharibəsi başlanan gündən torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atıldı. Son nəfəsinədək qəhrəmancasına vuruşdu və Hadrut uğrunda gedən döyüşlər zamanı şəhadətə yüksəldi. Vətənim üçün Nurlan kimi bir qəhrəman yetişdirdiyimə görə fəxr duyuram. Fəxr duyuram ki, Azərbaycanın Zəfər tarixinə adını yazdırmış, yalnız mənim deyil, bütün Azərbaycanın adını hörmət və qürurla andığı bir igidin anasıyam”,- deyə Rəhilə Ramazanova qeyd edib.

Çıxış edən Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev bildirib ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi oldu: ”Ulu Öndərin orduda vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nəticəsində nizami ordu formalaşdırıldı. Mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin formalaşması başa çatdırıldı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi”.

Onun sözlərinə görə, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır: ”Qarşısına qoyulan hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarında olan Azərbaycan Ordusu bu gün müasir standartlara cavab verən səviyyədə formalaşıb. Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Ko-




mandanı İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da güclənir, döyüş qabiliyyətini artırır. Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır”.

Anar Mirzəyev deyib ki, Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi: ”Arzularımız 44 günlük Vətən müharibəsində çin oldu və biz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət nəticəsində böyük Qələbənin sevincini yaşadıq. Qəhrəman döyüşçülərimiz 30 il ərzində ”biz döyüşməyə hazırıq, lazım gəlsə, ölümə də gedərik” ifadəsinin yalnız söz xatirinə deyilmiş olmadığını sübüt etdi. Çünki onlar öz əzəli və əbədi torpaqlarımız uğrunda döyüşürdü. Onların döyüş əzmi bütün dünyaya səs saldı. ”Dəmir yumruq” əməliyyatı bir daha göstərdi ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Çin-Azərbaycan:
## Ənənəvi dostlar və tərəfdaşlar

***Çin və Azərbaycan ənənəvi dost tərəfdaşlardır. Bu, Çin Xalq Respublikasının Sədri Si Cinpinin Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubundan əksini tapıb. "Hazırda Çin-Azərbaycan münasibətləri çox yaxşı və sabit inkişaf edir, siyasi qarşılıqlı etimad daim möhkəmlənir, müxtəlif sahələrdə əməkdaşlıq müvəffəqiyyətlə irəliləyir. Sizin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üzrə səylərinizi yüksək qiymətləndirirəm. Ötən ilin sentyabrında biz Səmərqənd şəhərində yeni dövrdə ikitərəfli münasibətlərin inkişafına dair mühüm razılaşmaların əldə olunduğu uğurlu görüş keçirdik", - Sədrin məktubunda qeyd edilib.***



Yaxın tariximizə nəzər salaq, iki ölkə arasında əlaqələrin indiki durumu və perspektivləri əhatəlidir. Çin Azərbaycan üçün etibarlı tərəfdaş və dost dövlətdir. Azərbaycanla Çin arasında tarixi ənənələrə əsaslanan və möhkəm təməllər üzərində qurulmuş münasibətlər mövcuddur. Dövlətlərarası əlaqələr gündən-günə yüksələn xətt üzrə inkişaf edir. İki ölkə arasında daim genişlənən siyasi dialoq, iqtisadiyyat, nəqliyyat, logistika, infrastruktur, investisiya, enerji və digər sahələrdə uğurlu əməkdaşlıq, "Bir kəmər, bir yol", "Orta dəhliz" layihələri çərçivəsində tərəfdaşlıq, Çin şirkətlərinin ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərində fəal iştirakı bu münasibətləri bir az daha genişləndirir. Əminliklə qeyd etmək olar ki, Azərbaycan-Çin əlaqələrinin bütün sahələrdə dərinləşdirilməsi, əməkdaşlığımızın genişləndirilməsi xalqlarımızın mənafelərinə tam uyğun olaraq həyata keçirilir. Regional iqtisadi tərəfdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində birgə səylərin bundan sonra da uğurla davam etdirəcəyinə kimsənin şübhəsi yoxdur.



Çin Xalq Respublikası Azərbaycanın müstəqilliyi tanıyan ilk ölkələrdəndir. 1992-ci il aprelin 2-də iki ölkə arasında diplomatik münasibətlərin qurulub və Azərbaycan-Çin münasibətlərinin müasir mərhələsi başlayıb. Çin 1992-ci ildə Bakıda, Azərbaycan isə 1993-cü ildə Pekində səfirlik açıb. Yüksək səviyyəli səfərlər 1994-cü ildə Azərbaycan prezidenti Heydər Əliyevin ÇXR-ə rəsmi səfəri ilə başlayıb. Prezident İlham Əliyev 2 dəfə rəsmi, bir-neçə dəfə isə müxtəlif beynəlxaq səviyyəli tədbirlərdə iştirak etmək üçün Çinə səfər edib. Dünyanın ən böyük iqtisadiyyatına malik ölkələrdən olan Çinlə iqtisadi əlaqələrimiz, əməkdaşlığımız üçün çox möhkəm siyasi platforma qurulub. 30 il ərzində davam edən siyasi münasibətlər artıq bu iki ölkənin yaxşı tərəfdaş və bir-birinə etibar edən dostlar olduğunu nümayiş etdirir. Prezident İlham Əliyevin Davosda Çinin CGTN televiziya kanalına müsahibəsində dediyi kimi: "Azərbaycan Orta Dəhlizlə bağlı Çinin təşəbbüslərini dəstəkləyir. Azərbaycanda biz artıq öz ev tapşırığımızı yerinə yetirmişik. Biz nəqliyyat infrastrukturunun bütün zəruri seqmentlərini qurmuşuq".

Xalqlarımız arasındakı uzunmüddətli dostluq əlaqələri iki min il əvvələ - qədim İpək Yolunun başlanğıcına qədər uzanır. İpək Yolu və onun üzərindəki şəhərlər müntəzəm inkişaf edirdi. Bu qədim şəhərlərdən biri olan Bakı İpək Yolunun incisi kimi dünyada məşhurlaşmışdı. İpək Yolu vasitəsilə Çinin gözəl ipəyi Azərbaycana, Azərbaycanın nadir xalçaları və daş duzu isə Çinə çatdırılırdı. Elə bu səbəbdəndir ki, Çin rəsmiləri Azərbaycan Respublikasının "Bir kəmər, bir yol" strategiyası üçün vacib ölkə olduğunu hər zaman qeyd edirlər. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılıb. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Əslində, Prezident İlham Əliyevin dediyi kimi: ""Bir kəmər, bir yol" təşəbbüsü indi çox böyük coğrafiyanı əhatə edən, vaxtında irəli sürülmüş çox müdrik bir təşəbbüs idi. Azərbaycan bu təşəbbüsə ilk günlərdən fəal şəkildə qoşuldu və biz mövcud olmayan infrastruktura investisiya yatırmağa başladıq. Son 10 il ərzində Azərbaycan Xəzər dənizində ən böyük ticarət limanlarından birini inşa etdi. Onun yükaşırma qabiliyyətini 25 milyon tona qədər artıracağıq. Biz Xəzər dənizi ilə yükləri daşımaq üçün gəmiqayırma zavodunu inşa etdik. "Bir kəmər, bir yol" təşəbbüsü müxtəlif marşrutları, xüsusilə Şimal-Cənub marşrutu üzrə daşımanı fəallaşdırdı".

Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında siyasi əlaqələr də yeksək səviyyədədir. Çin Kommunist Partiyası (ÇKP) ilə Yeni Azərbaycan Partiyası (YAP) arasında sıx təmaslar mövcuddur, qarşılıqlı səfərlər təcrübə mübadiləsi və əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıyır. ÇKP rəsmiləri Yeni Azərbaycan Partiyası ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu dəfələrlə yüksək səviyyəli görüşlərdə daim vurğulayıblar. YAP nümayəndə heyətinin baş tutan səfəri də hakim partiyalar arasında dostluq münasibətlərinin daha da gücləndirilməsinə xidmət etdiyini əminliklə deyə bilərik.






Bu gün Azərbaycan beynəlxalq tranzit imkanlarını dünyaya təqdim edir və bunun üçün kifayət qədər əsaslı infrastrukturu var. Çin və Azərbaycan xalqları arasında böyük tarixə malik olan dostluq münasibətləri nəticəsində Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Bu baxımdan "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Azərbaycan Cənubi Qafqaz regionunda çox önəmli bir ölkədir. Şimal ilə Cənubun, Şərq ilə Qərbin qovuşuğunda yerləşir, Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır. Bu baxımdan Azərbaycan nəqliyyat və geosiyasi mövqe üstünlüyünə malikdir. Qədim İpək Yolu və müasir "Bir kəmər, bir yol" strategiyası üçün çox vacib rol oynayan Azərbaycanın nəqliyyat-logistika üstünlüyü açıq şəkildə özünü göstərir. Hazırda işlək vəziyyətdə olan, Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu təkcə Azərbaycan, Gürcüstan və Türkiyə üçün deyil, ümumilikdə Avrasiya regionunda yerləşən ölkələr üçün də iqtisadi baxımdan yeni imkanlar açır. Dünyanın ən böyük ixracatçı və ikinci ən böyük idxalçı ölkəsi olan Çinin də bu dəmir yoluna marağı yüksəkdir. Həmçinin bu dəmir yolu "Bir kəmər, bir yol" strategiyasının səmərəliliyini də artıracaq. Ona görə də, Çin bu dəmir yolu xəttinə böyük əhəmiyyət verir. Bir sözlə, Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış əldə etmiş olur.

Təsadüfi deyil ki, 2023-cü il oktyabrın 17-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilib. Bu barədə Prezident İlham Əliyev dekabr ayının əvvəlində Fərman imzalayıb. Sənədə əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək. Azərbaycan Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərəcək.

Hazırda Azərbaycan-Çin münasibətləri sürətli və hərtərəfli inkişaf dövrünü yaşayır. Azərbaycan ikitərəfli münasibətləri daha da yüksək səviyyəyə qaldırmaq üçün Çin ilə birgə fəaliyyəti davam etdirməyə hazırdır. Dövlət başçılarının şəxsi təşəbbüsü və dəstəyi sayəsində Azərbaycan ilə Çin arasında siyasi qarşılıqlı etimad daim dərinləşir, müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin səmərəli nəticələri əldə edilir, beynəlxalq əməkdaşlıq inkişaf edir.

***V.VƏLİYEV***

ANALİTİK

**Fransanın bir dövlət olaraq fəaliyyəti və mahiyyəti barədə kifayət qədər, ən azından bizə lazım olan qədər məlumatlıyıq. İşğalçılığa dəstək, münaqişənin, müharibənin qızışdırılması üçün təxribatçı tərəfə silah verilməsi, senatorların, hətta şəhər merlərinin belə başqa bir dövlətin daxili işlərinə burun soxmaqla aranı qızışdırması rəsmi Paris üçün adi hal hesab olunur. Üstəlik, Afrika ölkələrinə qarşı kalonial siyasət yürüdən və bütün dünyada imicini sıfıra endirən Fransa yox dərəcəsində olan nüfuzunu günü-gündən itirməkdədir. Fransanın Cənubi Qafqazda sülh yox, müharibə arzusunda olduğu dəfələrlə öz təsdiqini tapıb və danışıqlar prosesində vasitəçi olaraq qəbul edilmədiyinin haqlı qərar olduğu artıq zərrə qədər də şübhə doğurmur.**

# Fransanın yürütdüyü siyasətin PƏRDƏARXASI



Avropa ölkəsi olan Fransa üçün Cənubi Qafqazın cırtdan ölkəsi Ermənistanı silahlandırmaq vacib görünə bilərmi? Əlbəttə ki, görünə bilməz. Elə isə fransızlara nə düşüb ki, ermənilərə bir qədər bundan öncə hərbi texnika göndərmişdilər? Ermənistan tərəfi 44 günlük müharibə zamanı yüzlərlə hərbi texnika itgisi ilə üzləşdiyi halda, həmin hərbi texnikanın məhz Bakıda, hərbi qənimətlər parkında olması fonunda Fransanın göndərdiyi 20-30 ədəd zirehli texnika nəyi dəyişə bilərdi axı? Bəlkə həmin hərbi texnika göndəriləndən sonra Ermənistanın "çiçəkləndiyinin" şahidi olan bircə dənə fransız göstərə bilərlər? Yaxud, ola bilsin bizim xəbərimiz yoxdur, bəlkə həmin hərbi texnika ilə Ermənistanın silah arsenalı dolub? Axı həmin arsenal demək olar ki, tamamilə boş idi və bir neçə sayda zirehli texnika ilə dola bilməzdi. Yaxşı bəs, dola bilməzdisə, bununla heç nəyə nail olmaq mümkün görünmürdüsə, bir neçə ədəd hərbi texnika göndərən Fransa nə düşünürdü onları göndərdiyi zaman? Təbii ki, yenə də münaqişəni qızışdırmaq, ölkələrin daxili işlərinə burun soxmaq ön planda durur. Ara qarışdırmaq, qarşıdurma yaratmaq, münaqişə və müharibə niyyətindən başqa Fransanın bir niyyətinin olmaması göz önündədir.

BMT kimi mötəbər bir beynəlxalq təşkilatın məlum dörd qətnaməsini ATƏT-in həmsədr ölkəsi olan Fransa onullər boyu nəzərə belə almadı. İşğalçılıq siyasəti yürüdülməsinə qarşı olan qərarlara, qətnamələrə məhəl qoyulmadığına heç münasibət də bildirmədi. Azərbaycan BMT adlı dünyanın bir nömrəli, eləcə də ən mötəbər beynəlxalq təşkilatının dörd qətnaməsinin icrasını reallaşdırdığı zaman Fransa əl-ayağa düşüb işğalçının tərəfində olduğunu açıq-aşkar nümayiş etdirdi. Öz tarixi torpaqlarını işğaldan azad edərək tarixi ədaləti bərpa edən Azərbaycanın həmin əraziləri xarabalığa çevirən Ermənistan tərəfindən fərqli olaraq, quruculuq işlərinə başlaması, infrastruktur layihələrini gerçəkləşdirməsi, yaşayış üçün əlverişli olan bütün mümkün şəraiti yaratması, abadlıq işləri aparması Fransanı narahat etməyə başladı. Azərbaycanın bölgədə yeni reallıq yaratması, təhlükəsizliyi, sabitliyi təmin etməsi, əraziləri abadlaşdırılması alqışlanmalı olduğu halda, rəsmi Paris buna tamamilə başqa rakursdan baxmalı oldu və bəlli oldu ki, təhlükəsizliyin, sabitliyin təmin olunması Fransanı qətiyyən qane etmir. Çünki bu Avropa ölkəsi heç də sülh niyyətli deyil.

Tarixi faktlara nəzər saldıqda görürük ki, Fransa öz müstəmləkəçilik siyasətini müharibə və münaqişələr üzərində qurub, sülh və əminamanlığın təmin olunmasında yox. Fəaliyyətinə və eyni zamanda məhz elə bu tarixi faktlara istinad edərək belə bir qənaətə gəlinir ki, Fransa regionda dayanıqlı sülhün əldə edilməsi yolunda yenə də pozucu və qərəzli mövqedədir. Əslində, Fransa xarici işlər naziri Katrin Kalonnanın İrəvanda verdiyi bəyanatlar özü də bu kontekstdə diqqəti cəlb edir və bu bəyanatın özünün belə pozucu niyyət daşıdığı göz önündədir. Göz önündə olan odur ki, hərbi baxımdan işğalçı ölkəni ruhlandırmaq üçün verilən bəyənatlar, ifadə edilən fikirlər bitmiş münaqişənin yenidən canlandırılması niyyəti daşıyır. Hal-hazırda Afrikada məhz Fransanın təhriki ilə, eləcə də həmin ölkənin birbaşa iştirakı ilə davam edən münaqişələr, hərbi çevrilişlər və bu kimi proseslər deyilənləri, həmin niyyəti təsdiq edir. Təsdiq edir ki, Fransa hansı ölkədə proseslərdə iştirak edirsə, həmin ölkədə pozuculuq niyyəti ilə, qərəzli niyyətlə iştirak edir. İndi Ermənistan da istisna hal deyil. Heç şübhəsiz ki, Fransa indi də qərəzli niyyətlə Cənubi Qafqazdakı proseslərə qatılır. Tam aydın şəkildə görünür ki, bölgədə sülhün bərqərar oilması rəsmi Parisin maraqlarına cavab vermir və məhz bu səbəbdən də Fransa burada da Afrika siyasəti yürütməyə çalışır.

Afrikadakı geo-siyasi itkilərini Cənubi Qafqazda kompensasiya etməyə cəhd edən Fransa hakimiyyəti region ölkələrinin işlərinə burun soxmaqla bundan istifadə etmək niyyətindədir. Afrikanın 10-dan artıq ölkəsi ilə Fransanın strateji səviyyədə olan münasibətlərini hakimiyyətə gəldikdən sonra diplomatik əlaqələrin dondurulmasına qədər pisləşdirən Makronu və onun hakimiyyətini qətiyyən hansısa ölkə maraqlandıra bilməz. Nə Fransa prezidenti Makron, nə də bu ölkə hakimiyyəti xalqları müharibəyə, qarşıdurmalara təhrik etməkdən başqa heç bir niyyət ortaya qomur. Ermənistana dayaq durmağı güya özünün şərəf məsələsi kimi təqdim edən Fransa hakimiyyətinin ermənipərəstliyi göründüyü kimi, əslində, hazırki dövrdə geosiyasi itgilərinin bərpası niyyətilədir və instinktiv olaraq, özünü müdafiə etmək hissinin təzahürüdür, hansıki bu, fransızlar üçün arzuolunan deyil. Sözsüz ki, belə təhlükəli oyunlara baş vurmasına, çirkin niyyətili addımlar atmasına görə Fransa hakimiyyəti tarix qarşısında cavab verəcək. Elə sıravi, sadə fransızlar da bu hakimiyyətdən hesab soracaqlar. Çünki Fransa hakimiyyətinin oynadığı oyunlar tarixin bağışlamayacağı böyük səhvlərdir və bu səhvlər Fransa üçün də daha böyük itgilər deməkdir.

Makronun Fransadakı erməni diasporunun, erməni icmasının təsiri altında olması çoxdan bəllidir. Fransa liderinin həmin o erməni diasporunun, erməni lobbisinin maliyyəsindən faydalandığı da sirr deyil. Seçkilərdə erməni lobbisinin, erməni diasporunun törədəcəyi maneədən qorxduğu da göz önündədir. Belə olan halda, Emmanuel Makronun özünü ermənidən də betər erməni kimi aparması, haylara özlərindən də guya daha çox diqqətlə yanaşması, bir sözlə, əl-ayağa düşməsi başadüşüləndir. Xüsusən də, hazırda Fransanın ictimai-siyasi, milli böhran içində olduğu vaxt bu, daha yaxşı anlaşılandır. Bir Avropa ölkəsi olan Fransada idarəçilik zəifləyib, talanlar törədilir və xaos baş alıb gedir. Həmin o Avropa ölkəsi dediyimiz dövləti dünya ictimaiyyəti istismarçı dövlət olaraq tanıyır və belə də qəbul edirsə, Fransanın adına sülhyaratma, demokratiya anlayışı heç cür şamil oluna bilməz. Öz ölkəsinin vətəndaşlarının qayğısına qalmalı, öz dövlətinin yox dərəcəsində olan nüfuzu barədə qayğılanmalı, düşünməli olan Fransa hakimiyyəti tərəfindən bəyan edilənlərin dəyərinin nə qədər olduğu da, mahiyyəti də çoxdan bəllidir.

Fransanın anti-Azərbaycan mövqeyi bu vaxta qədər bir çox istiqamətlərdə dəfələrlə özünü göstərib və rəsmi Parisin Bakıya qarşı əsassız, ədalətsiz, haqsız, ikili yanaşmalarının mütəmadi olaraq şahidi olmuşuq. Bir növ, ermənipərəst fransızların məhz Azərbaycana, azərbaycanlılara qarşı haqsızlığı, davamlı xarakter aldığına və onlar üçün sanki ənənəyə çevrildiyinə görə artıq dünya ictimaiyyəti buna sanki öyrəncəli olub və heç bir reaksiya vermir. Ölkəmizə qarşı rəsmi Parisin qərəzli münasibət, haqsız, ədalətsiz, ikili yanaşma sərgiləməsinə bəraət qazandırmaq üçün, fransızlar çarəsiz bir şəkildə "casus" qalmaqalına əl atdılar, amma yenə də dünya ölkələrindən bir reaksiya olmadı.

Rəsmi Parisin irticaçı siyasəti Cənubi Qafqaz üçün yaxşı heç nə vəd etmir. Hərbi siyasi ideologiya ilə bölgəyə soxulmaq arzusunda olan Fransanın niyyəti heç də sülhə yönəlik deyil, özünün imperialist və ekspansionist ideologiyasının Cənubi Qafqazda da tətbiq edilməsi məqsədi güdülür. Yəni, Fransa öz imperialist siyasətinə, öz ənənəsinə uyğun olaraq, dövlət maraqlarına müvafiq şəkildə olmaqla, digər dövlətlərin daxili işlərinə qarışmaq üçün əlindən gələni edir. Dünya ictimaiyyəti hər şeyi çox gözəl müşahidə edir və şahiddir ki, Cənubi Qafqaza soxulmaq, özünə yer eləmək, sonra da istədiyi siyasəti, yəni bu vaxta qədər yürütdüyü müstəmləkəçilik siyasətini bölgədə yürütmək üçün çalışır. Elə Fransanın Ermənistanda daimi hərbi attaşesinin təyinatına hazırlıq görməsi də onun necə və hansı məqsədlər üçün çalışdığını ortaya qoyur. Bu Avropa ölkəsinin məhz özünün neomüstəmləkəçilik siyasətini indi də Cənubi Qafqaza daşımaq istədiyi artıq zərrə qədər də şübhə doğurmur. Fransa Afrikadakı reputasiya itkilərini kompensasiya etmək üçün çalışır. Həqiqətən də rəsmi Paris, eləcə də Emmanuel Makron birbaşa Cənubi Qafqaza yönəlik elə bir siyasət yürüdür ki, tərəflər arasında münaqişəni, qarşıdurmanı daha da qızışdırıb əraziyə nəzarəti ələ alsın. Azərbaycan Cənubi Qafqazda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi mövqeyindən geri çəkilmədən, Parisin neokolonial üsulları da daxil olmaqla, beynəlxalq hüququn icazə verdiyi bütün imkanlardan istifadə edərək, regionda sabitliyin pozulmasına heç bir şəkildə razı olmayacaq və buna qarşı çıxacaq.

Fransa beynəlxalq təşkilatlarda təmsilçiliyindən sui istifadə edərək, ayrı-ayrı dövlətlərim daxili işlərinə qarışır, təxribat planları həyata keçirir. Cənubi Qafqaz ölkələrində guya hansısa proseslərdə iştirak etmək niyyətini bəyan edən rəsmi Paris niyə öz ölkəsində baş verən proseslər barədə düşünmür? Başda elə Emmanuel Makron olmaqla, Azərbaycanın işlərinə burnunu soxan fransızlara xatırlatmaq istərdik ki, Fransanın özünün kifayət qədər problemləri var və öz problemləri ilə məşğul olması daha məntiqi olardı. Afrikadan başlayaraq, digər istiqamətlərdə də Fransanın xarici siyasətinin iflasa uğraması, Afrikada anti Fransa əhval ruhiyyəsi, fransızların həmin qitədən qovulması, koloniyalarda böyük zərbələr alması rəsmi Paris üçün yetərincə böyük və kifayət qədər dərin problemlərdir. Niyə Makron və onun hakimiyyət komandası bununla məşğul olmur, burnunu başqa dövlətlərin işlərinə soxur? Sözsüz ki, səbəb bəllidir və bəlli olan səbəb də odur ki, Makron düşünülməmiş, yanlış siyasət yürüdür. Bu siyasət isə Fransanın istənilən istiqamətdə iflasını sürətləndirir və ölkəsinin dünyada mənafelərinə çox ciddi zərbə vurur. Rəsmi Parisin yürütdüyü siyasətin pərdəarxasında hələ nələr düyandığı, çox güman ki, bundan sonra da üzə çıxacaq. Heç şübhəsiz ki, yeni faktların üzə çıxması Makron diktaturası üçün bir rezonans olacaq.

***İnam Hacıyev***

# ABŞ vətəndaş müharibəsinə sürüklənir



İkinci dünya müharibəsindən sonra ABŞ ən ağır, fəlakətli dövrünü yaşadığını desək səhv etmərik. Çünki ölkə bütün sahələrdə, o cümlədən siyasi, hərbi, iqtisadi sahələrdə ciddi şəkildə geriləməyə məruz qalıb. Bu fakt yalnız hakimiyyətdə olan Baydenin apardığı yanlış siyasəti, həyata keçirdiyi səhv islahatları ilə bağlı deyil, həm də ölkənin resurslarının tədricən tükənməsidir. Digər tərəfdən, ABŞ dünyada inam və etimadını tamamilə itirib. Hətta Qərbi Avropa ölkələri rəsmi Vaşinqtondan uzaqlaşma siyasəti aparırlar. Halbuki, son illərə qədər Qərbi Avropa ölkələri ABŞ-ın vassalı olaraq tanınır və qəbul edilirdilər. Onlar iqtisadi, hərbi baxımdan ABŞ-dan asılı idilər, bir növ müstəqil siyasət aparmaqdan məhrum görünürdülər. Lakin hazırkı məqamda Qərbi Avropa ölkələri müstəqil siyasətə meyil göstərməklə ABŞ-ın təsir dairəsindən çıxmağa çalışırlar.

## Vaşinqton ağır sınaq qarşısındadır







Ölkənin ictimai siyasi vəziyyəti də arzuolunan deyil. Hər gün demək olar ki, qanlı toqquşmalar baş verir və bu toqquşmalar zamanı insanlar həyatlarını itirirlər. Hələ 2010-cu ildə amerikalı alim, sosioloq, Konnektikut Universitetinin professoru Piter Turçin on ildən sonra ABŞ-da siyasi qeyri-sabitlik və xalq iğtişaşları dövrünün başlayacağını proqnozlaşdıranda, onlar inanmırdılar. Belə bir proqnoz o anda çox inanılmaz görünürdü. Artıq ABŞ-da cərəyan ağır proseslər Turçinin proqnozu özünü doğrultmağa başlayıb desək səhv etmərik. Afroamerikalı Corc Floydun ölümündən sonra ABŞ-ı bürümüş kütləvi iğtişaşları, Kapitoliyə hücumu, beynəlxalq ödənişlərin iflası, dolların çöküşü onu deməyə əsas verir ki, Vaşinqton ağır sınaq qarşısındadır. Ən azı vətəndaş müharibəsi ölkəni 200 il əvvəlki qarışıq dövrə qaytara bilər. 2021-ci ilin yanvarın 6-da Vaşinqtonda Donald Tramp tərəfdarlarının Kapitoli binası önündə izdihamlı mitinqi zamanı aksiya iştirakçıları ilə polis arasında toqquşma daha amansız xarakter almışdı. O zaman nümayişçilər ABŞ prezidenti seçkilərinin ratifikasiyası keçirilən Konqresin binasına girib və onu bir neçə saatlığa zəbt etmişdirlər. Kapitoli binası qarşısında baş verən etiraz aksiyası və iğtişaşlar zamanı 4 nəfər ölüb, 17 nəfər yaralanmışdır. Konqresin iclası yarımçıq dayandırılıb, konqresmenlərin bir hissəsi təxliyə edilmişdir. İğtişaşların yatırılmasına milli qvardiya cəlb edilib və Vaşinqtonda komendant saatı elan olunmuşdur. Aksiya iştirakçılarından 52 nəfəri saxlanılıb. Etirazçılar binadan çıxarıldıqdan sonra Konqres müzakirələri bərpa etmişdir. Hazırkı ölkədaxili ağır durum eynilə 2021-ci il qanlı iğtişaşları, vətəndaş qarşıdurmalarını xatırladır. Bu da 2024-cü il noyabrın 5-nə təyin edilən prezident seçkiləri ilə bağlıdır. İddialı şəxslərdən biri digərinə milli maraqlar zərbə altında qalsa belə güzəştə getmirlər. Əhali prezidenti seçməklə yanaşı, ABŞ Senatını və Konqresini müəyyənləşdirməyə çalışacaqlar. ABŞ Konstitusiyasına əsasən, 35 yaşdan yuxarı, ABŞ-da anadan olmuş və ən azı 14 il bu ölkədə yaşamış vətəndaş prezidentliyə namizədliyini irəli sürə bilər. Nəzərə almaq lazımdır ki, seçki ölkə tarixində 60-cı prezident seçkiləri olacaq və bu seçkidə ABŞ-ın 47-ci prezidenti seçilə bilər.

## Hazırkı ağır durum eyni ilə 2021-ci il qanlı iğtişaşları, vətəndaş qarşıdurmalarını xatırladır

ABŞ-ın hazırkı Prezidenti Co Bayden yenidən öz namizədliyini irəli sürüb. Demokratlar partiyasından onunla rəqabət aparacaq əsas fiqurlar Robert Kennedi (kiçik) və yazıçı, siyasətçi Marianne Villyamsondur. Siyasi analitiklər bildirirlər ki, hazırda bu partiyada Baydenin vahid namizəd göstərilmə şansı daha çoxdur. Respublikaçılardan prezidentliyə vahid namizədlər arasında keçmiş dövlət başçısı Donald Trampla yanaşı, daha 10 siyasətçi prezidentliyə vahid namizəd olmağa iddialıdır. Rəqib Demokratlardan fərqli olaraq, bu partiyada rəqabətin daha gərgin olduğu bildirilir. Belə ki, namizədlər arasında ABŞ-ın keçmiş vitse-prezidenti Mayk Pens, Florida ştatının qubernatoru Ron De Santis, partiyada Trampın ən sərt tənqidçisi, senator Liz Çeyni, keçmiş milli təhlükəsizlik müşaviri Con Bolton, Birləşmiş Ştatların daha 4 ştatının qubernatorları var. Maraqlıdır ki, eyni partiyanın üzvü olsalar da, bu namizədlərin əksəriyyəti 76 yaşlı Donald Trampın siyasətini tənqid edən siyasətçilərdir. 2022-ci ildə ABŞ-ın 45-ci prezidenti Donald Tramp seçki kampaniyasına başladığını elan edib. 25 aprel 2023-cü ildə isə hazırkı prezident Co Bayden namizədliyini irəli sürdüyünü açıqlayıb. Bu isə onu deməyə əsas verir ki, rəqabət bu iki namizəd arasında aparılacaq. Qalibin isə Tramp olacağı proqnozlaşdırılır. Çünki C.Baydenin sosial iqtisadi siyasəti ölkəni uçuruma sürükləyib. Eyni zamanda, əhali Baydenin xarici siyasətindən də narazıdır. Tramp isə müəyyən siyasi açılamaları və əhali ilə yaxın təmasları ilə 2020-ci illə müqayisədə bir qədər möhkəmləndirib. Hər iki partiyadan olan namizədlərin çıxışları və bəyanatları ABŞ cəmiyyətində böyük maraq doğurur. Onların Rusiya, Ukraynadakı müharibə, Çinlə münasibətlərin gələcəyi ilə bağlı mövqeləri isə daha mühümdür. Bundan başqa, hazırda həm Demokratlar, həm də Respublikaçıların bir sıra siyasi xadimləri indiki administrasiyanın Yaxın Şərq siyasətini kəskin şəkildə tənqid edirlər. Onlar bildirirlər ki, Vaşinqtonun ərəb ölkələri, xüsusən, Səudiyyə Ərəbistanı ilə münasibətlərinin möhkəmlənməsi zəruridir. Bu kontekstdə Donald Trampın bəyanatları daha çox marağa səbəb olur.

## Tramp seçkilərə qatılmaqdan məhrum edilə bilər

D.Trampa qarşı məhkəmə çəkişmələri onun seçkilərdən kənarlaşdırılmasına gətirib çıxara bilər. Trampa qarşı açılan 16 iddiadan 9-u respublikaçı Con Entoni Kastro tərəfindən açılıb. O, iştirak etdiyi hər seçkidə uğursuzluğa düçar olub, pul müqabilində vergi məsləhətləri verir və hələ də kredit kartına 53.000 dollar borcu var. Kastro yüksək səviyyəli məhkəmələrdə şöhrət qazanmaq istədiyini gizlətmir. ABŞ hakimiyyətinin qismən də olsa təsiri olarsa məhkəmə Trampın seçkilərə qatılmasını əngəlləyə bilər. Nəzərə almaq lazımdır ki, C.Bayden dəfələrlə D.Trampı tənqid edib, onu ölkənin maraqlarına qarşı çıxmaqda günahlandırıb. C.Bayden ABŞ dövlətinə üzqaralıq gətirən Kapitoli binasına hücumun təşkilində D.Trampın rolu olduğunu qeyd edir. Bütün bunlar D.Trampın ziyanına olan yanaşmalardır. Lakin əksər siyasi təhlilçilər o fikirdədir ki, Bayden hakimiyyətinin Trampı prezident seçkilərdən kənarlaşdırmaq planları çətin olacaq. Hətta bu dirənişin ölkədə vətəndaş qarşıdurmasına gətirib çıxaracağı bildirilir. Rusiya Elmlər Akademiyasının ABŞ və Kanada İnstitutunun baş elmi işçisi Vladimir Vasilyev Donald Trampın prezident seçkilərində iştirakı ilə bağlı vəziyyətlə bağlı proqnoz verib. Onun sözlərinə görə, əgər həqiqətən də ona ABŞ-ın müxtəlif ştatlarında Respublikaçıların praymerizində iştirakına icazə verilməsə, ölkə vətəndaş müharibəsinə qərq ola bilər: ”Kolorado Ali Məhkəməsi Donald Trampı prezident seçkilərinə gedərkən yerli praymerizlərdən kənarlaşdıran kimi, Miçiqandan Nyu-Cersiyə qədər daha 16 ştatda da oxşar iddiaların qaldırıldığı məlum oldu. ABŞ-da əvvəllər belə bir vəziyyət olmamışdı. Və bütün növ analitikləri maraqlandırır: Tramp prezident ola biləcəkmi? Yoxsa qanuni hücumlarla başa çatacaq? Respublikaçının əleyhdarları ilk hüquqi uğurlarını ölkənin 14-cü düzəlişinə müraciət etməklə qeyd etdilər. Düzəliş hələ vətəndaş müharibəsində, 19-cu əsrdə qəbul edilib. Nəticədə qiyamda iştirak edən seçilmiş məmurlar dövlət vəzifələrində ola bilməzlər. Amma bu düzəlişdə prezidentin mövqeyi barədə konkret bir söz yoxdur. Trampın düşmənlərinin başa düşdüyü kimi üsyan 2021-ci ildə Kapitoliyə hücumun hekayəsidir. Bütün hekayənin çox uzaq olduğu aydındır. Üstəlik, iğtişaşlarda eks-prezidentin günahı sübuta yetirilməyib. Lakin Demokratlar ləngimək fikrində deyillər. Onların əsas vəzifəsi Baydenin reytinqlərinin aşağı düşməsi fonunda nəyin bahasına olursa-olsun rəqibindən yaxa qurtarmaqdır”.

Amerika Birləşmiş Ştatları və Kanada İnstitutunun baş elmi işçisi Vladimir Vasilyev onu da bildirib ki, Trampın vəkilləri ABŞ Ali Məhkəməsinə müraciət edəcəklərini bildiriblər. Əks halda, bütün seçkiqabağı proses aşağı gedəcək: ”Üstəlik, Amerika vətəndaş müharibəsinin astanasında ola bilər. Əgər 2021-ci il hadisələri Kapitoliyə hücumla məhdudlaşsaydı, sabah bütün ölkədə iğtişaşlar ola bilər. Apellyasiya şikayəti həftələr, bəlkə də aylar çəkə bilər.

Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Pavel Şarikov isə o fikirdədir ki, ABŞ Ali Məhkəməsinin doqquz hakimindən altısı respublikaçılar tərəfindən, yalnız üç nəfərin namizədliyi irəli sürülüb: ”Demokratlar tərəfindən. ”Anlayan bir detal: Kolorado Ali Məhkəməsi bölündü: dördü lehinə, üçü əleyhinə idi. Qalmaqallı hökmü çıxaran ölkə tarixində ilk gey hakim Monika Markes olub. Trampın belə personajlara münasibəti hər kəsə məlumdur”.

Vəziyyətin son dərəcə ağır olması ABŞ üçün ləkə hesab edilə bilər. Həm də ölkənin demokratik dövlət imicinə sarsıdıcı zərbədir. Siyasətçilər isə hakimiyyət uğrunda gərgin savaşa başladıqlarından ölkənin uçurum kənarında olmasının fərqində deyillər. Bu isə amerikalıların bu günü və gələcəkləri üçün arzuolunmaz nəticələr vəd edir.

**İLHAM ƏLİYEV**

# Xalqın şərəfini xilas edən LİDER!






Adəti üzrə ad günündə xalqı ilə bir yerdə olan dövlətimizin başçısı, Ali Baş Komandan, müzəffər sərkərdə, bütün azərbaycanlıların sevimli Prezidenti cənab İlham Əliyev ötən il də dekabrın 24-də Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşdü. Görüş zamanı Prezidentimiz deyirdi: Mən əvvəlki dövrdə adətən 24 dekabr günündə məcburi köçkünlərlə bir yerdə olurdum, doğum günümü heç vaxt qeyd etməmişəm, ancaq ailə üzvlərimlə qeyd etmişəm. Hesab edirəm ki, bugünkü gün istisna deyil, yenə də ailə üzvlərimlə birlikdə qeyd edirəm   Əlli yaşım olanda Ağcabədidə məcburi köçkünlərlə bir yerdə idim və onlara demişdim ki, gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, qarşılayacaqsınız, mən sizin diyarınıza qonaq gələcəyəm və o gün gəldi. O gündən doqquz il sonra biz artıq Şuşada idik, bayrağımız da Şuşada dalğalanırdı. Altmış yaşımı Cıdır düzündə qeyd etmişəm, ondan əvvəl azad edilmiş Hadrutda hərbi hissənin açılışında iştirak etmişəm. Bu il dekabrın 24-ü üçün əlbəttə ki, bəzi fikirlərim var idi. Bu da bir rəmzi məna daşımalı idi. Hesab etdim ki, ən düzgün tədbir, bax, bizim bugünkü tədbirimiz olmalıdır.

Bəli, dövlətimizin başçısı ötən il öz ad gününü Qərbi Azərbaycana həsr etdi, Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış oldu və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdü, tarixi faktlara söykənən maraqlı çıxış etdi, verdiyi mesajlarla qəlblərdə yeni bir inam yaratdı: Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

Ötən ildən bəri görülən işlər fonunda aydın görünür ki, o gün uzaqda deyil.

## Yeri gələndə tarixçi, coğrafiyaçı, siyasətçi, yeri gələndə sıravi azərbaycanlı LİDER

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 illik zaman kəsiyinin axarını dəyişəcəkdi.

Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, O, tək ailəsinə məxsus övlad yox, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizin Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 200 illik axını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildə bir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

## 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu.

Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onların hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilmən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdilər.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduqları maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.





## Azərbaycan gəncliyinə nümunə LİDER

Heydər Əliyev və Zərifə xanım Əliyevanın böyüdüb tərbiyə etdiyi övladı öncə ataanadan, ailədəki dəyərlərdən, sonra isə xalqın bu ailəyə etimadından, böyük Heydər Əliyevə nüfuzundan, onun mənəvi və siyasi varisinin Heydər Əliyev yolunu uğurla davam etdirəcəyinə böyük inamından aldığı güclə böyük Liderə çevrilə bildi. Xalq öz liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi.

Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəli-gündüzlü Ali Baş Komandanın əmrini gözləmələri ötən 30 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi.

Minlərlə gəncimizin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olundu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf etdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda görüb.

Bizim gənclərin vətənpərvərliyi isə cənab İlham Əliyevin son 20 ildə Azərbaycanda yarada bildiyi ictimai mühitin bəhrələri idi. Vətəndaşına yanaşmasının, hər yaş qrupunda olan insanlara eyni qayğı göstərməsinin, gənclər üçün yaradılan hərtərəfli şəraitin, ən əsası isə onlara vətənpərvərliyin aşılanmasının nəticələri idi. Bizim Prezidentimiz Azərbaycan gəncliyinə özü bir nümunə idi. Gənclik Liderimizin beynəlxalq kürsülərdə səsləndirdikləri fikirləri sosial şəbəkələrdə paylaşırdı. Liderimizin müharibə dövründə xarici mətbuat nümayəndələrinə verdiyi onlarla müsahibədəki qətiyyətli cavablar hər bir gəncin sosial şəbəkə manşetinə çevrilmişdi. Bu gün də elədir. Bu gün Azərbaycanda Prezientimizin fəaliyyətini, dəyərli fikirlərini dərhal gənclərimizin sosial şəbəkələrdəki paylaşımlarında görmək olur. Bu, inamdır, arxalanmaq, etibar etməkdir. Bir də xalqın Liderinə sevgisidir. Bu sevgi isə düz sərhədlərimizə qədər uzanır. Ölkəmizin sərhədlərinin, ərazi bütövlüyünün qorunması üçün hər kəsin sinəsini sipər etməsini şərtləndirir.

## Xalqını xoşbəxt gələcəyə aparan LİDER

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.



Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərlərinə düşən öhdəliklərin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır.

Beləliklə Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbircək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər.

*Mətanət Məmmədova*
*Əməkdar jurnalist*



# Turizm sahəsində pandemiyadan sonrakı bərpa prosesi hansı sürətlə inkişaf edir?

Azərbaycanda turizmin inkişafı hansı səviyyədədir? Pandemiyadan sonrakı bərpa prosesi hansı sürətlə inkişaf edir? SİA-nın suallarını turizm ekspertləri cavablandırıb. Turizm eksperti Ceyhun Aşurovun sözlərinə görə, turizmin bərpası demək olar ki, bütün dünyada baş verir: "Bu ilin sonuna qədər pandemiyadan sonrakı dövrə görə dünyada təxminən 90% turizm bazarı bərpa olunmuş hesab olunacaq. Azərbaycanda bu göstərici nisbətən azdır. Dünyanın regionlarında göstəricilər müxtəlifdir. Orta Şərqdə və Avropada daha çox bərpa qeydə alınıb. Çünki həmin yerlər pandemiyadan sonrakı dövrdə daha çox liberal addım ataraq yumşalma siyasətinin nəticəsində turistlərin gəlişgedişi üçün rahat şərait yaratmışdılar. 2019-cu ildə Azərbaycandan xaricə gedənlərin sayı təqribən 5.5 milyon, Azərbaycana gələn turist sayı isə təxminən 3.2 milyon nəfər idi. Pandemiya dövründə bu say kəskin azaldı. 2021, 2022, 2023-cü illərdə həmin azalmadan sonrakı bərpa dövrləri hesab olunur.

Ekspertin fikrincə, sektorun inkişafı üçün əsas məqam ölkəyə giriş-çıxışın daha rahat olması, müxtəlif məhdudiyyətlərin aradan qaldırılması ilə bağlıdır: "Düzdür Azərbaycanda quru sərhədlər təəssüf ki, hələ də bağlıdır. Bunun yəqin ki, müxtəlif səbəbləri var. Çünki Azərbaycan bu qısa müddət ərzində böyük yol keçdi, ciddi dəyişikliklərə səbəb olan hadisələr yaşadı. Uçuş nöqtələrinin sayı artdı, hava nəqliyyatımız açıqdır, təyyarə ilə gəliş-gedişlər var. Amma dünyadakı gedən proseslərə nisbətən quru sərhədlərin bağlı olmasını götürsək deyə bilərik ki, Azərbaycanda turizmin bərpası nisbətən geridə qalır.

C. Aşurov bildirib ki, sürətli inkişafla bağlı bir sıra işlər görülməlidir: "Sərgilərdə Azərbaycan turizm məkanı kimi sərgilənir. Amma ölkənin daha əlçatan olmasını təmin etmək lazımdır. Müxtəlif təşviq kampaniyalarından geniş istifadə olunmalıdır. Eyni zamanda gələcəyə yönəlik Bakıda və regionlarda turizmin təşviqi ilə bağlı müxtəlif addımlar atılmalıdır. Düşünürəm ki, regionlarda otellərin, kənd evlərinin, qalma yerlərinin saylarının artırılması ilə bağlı təşviq kampaniyaları daha da genişlənməlidir. Sağlam rəqabət mühiti üçün kəmiyyət məsələsi də önəmlidir. Bu həm də qiymət siyasətinə ciddi təsir edəcək. Eyni zamanda ölkəyə gələn turistlərin rahat gələ bilmələri, Azərbaycanı seçmələri üçün səbəblərin sayını artırmaq lazımdır".

Ekspert Rəhman Quliyev qeyd edib ki, hər il olduğu kimi bu il də ənənəvi olaraq xarici ölkələrdən Azərbaycana turistlər gəlməkdə davam edir: "Müxtəlif ölkələrdən Azərbaycana turistlər gəlir. Təbii ki, bu qarşılıqlı turist mübadiləsi həmişə olduğu kimi var. Xüsusilə Azərbaycandan aviakampaniyalar vasitəsilə birbaşa uçuş həyata keçirildiyi istiqamətlərdə bu daha çox nəzərə çarpır. Avropa ölkələrindən, Rusiyanın şəhərlərindən, eyni zamanda qonşu ölkələrdən və ərəb ölkələrindən turist axını müşahidə olunur. Bu gün Azərbaycanda regionlarda fəaliyyət göstərən otellərimiz yeni il şou proqramları təşkil edən otellər mövcuddur. Burada əvvəlki illərlə müqayisədə həm qiymət həm də servis baxımından vəziyyət daha yaxşıdır. Artıq bizdə otellərin sayı artır və bu artım da rəqabətə gətirib çıxarır. Bu rəqabət düzgün qiymət siyasətinin yürüdülməsinə, servisin yüksək göstərilməsinə gətirib çıxarır. Əlbəttə ki, biz otellərin sayını artırsaq turizm sənayesində daha çox uğur əldə edəcəyik".

R. Quliyev bildirib ki, işğaldan azad olunan ərazilərdə, xüsusilə Şuşa, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı, Ağdamda turizmə maraq artacaq: "Hələ ki, Şuşaya turlar təşkil olunur. Növbəti illərdə işğaldan azad olunan digər rayonlarımıza da turların təşkil olunması gözlənilir. Artıq hava limanları demək olar ki, hazır vəziyyətə gətirilib. Qarabağ bölgəsində fəaliyyət göstərən 4 böyük beynəlxalq hava limanı digər ölkələrdən birbaşa aviareyslərin olacağını deməyə əsas verir. Bu da böyük bir turizm inqilabı deməkdir".

Ekspertin sözlərinə görə, tibbi turizmdə də böyük nailiyyətlər əldə edilməlidir: "Azərbaycanın təbiəti, mineral bulaqları, termal xarakterli suları əsas verir ki, Azərbaycanda termal xarakterli sanatoriyaların inkişafına böyük önəm verək. Xüsusən də ekonom büdcəli sanatoriyaların tikilib istifadəyə verilməsi həm əcnəbi həm də yerli turistlərin böyük marağına səbəb olacaq. Bu da yol infrastrukturu, ictimai asayişin qorunub saxlanması, ümumilikdə Azərbaycan turizminin inkişafı istiqamətində böyük rol oynayır. Ucqar nöqtələrə belə beynəlxalq standartlara uyğun avtomagistral yolların yüksək səviyyədə tikilməsi önəmlidir. Yerli turistlər də rahat şəkildə gedə bilsinlər. Pandemiyadan əvvəlki dövrə baxdıqda görərik ki, vətəndaşlar avtomobilləri ilə Gürcüstanın Batumiyə, Borjomiyə və daha uzaq məsafələrə gedirdilər. Bu baxımdan biz nəzərə alsaq ki, quru sərhədlərin açıq olduğu vaxtda hər kəs öz avtomobili ilə ən uzaq yola 800-1000 km yolu qət edib sanatoriyaya gedirdilərsə niyə bu gün Qarabağda bizim öz sanatoriyalarımızdan istifadə etməsinlər? Bizim sanatoriyalar adını çəkdiyim yerlərdəki sanatoriyalardan qat-qat üstün səviyyədədir".

**Rəşid Qarayev**



Lalə Mehralı

# Komitə ailələri qorumaq istəyir, yoxsa dağıtmaq?

Doğ, böyüt, oxut, evləndir, axırda da məsləhətini zorakılıq adlandırsınlar...

Ailə, insanın ən dərin tərbiyə aldığı, həyatı öyrəndiyi, həyata hazırlaşdığı bir məktəbdir. Ailə insanın həm fərdi, həm də sosial-mədəni status qazandığı bir məkandır. Uşağın şəxsiyyəti ailə tərbiyəsinin nəticəsidir. Boşuna deməyiblər, hər uşaq ailəsinin güzgüsüdür. Övladlarının şəxsiyyətini verdikləri tərbiyə ilə inşa edən ailələr bununla həm də mənsub olduqları millətin şəxsiyyətini və taleyini inşa etmiş olurlar. Həmçinin, öz tərbiyələrini, əxlaqlarını övladlarının timsalında göstərmiş olurlar. Bu səbəbdən ailə tərbiyəsinin istiqaməti, tərkibi, inqrediyentləri böyük əhəmiyyət daşıyır.

Amma bütün ailələr öz övladını həyata hazırlayanda ehtiyacı olan tərbiyəni vermir, ya da yarımçıq verir. Bunun nəticəsidir ki, min bir zəhmətlə qurulan ailələr asanlıqla dağıdılır. Bunun nəticəsidir ki,oğlanlar ailə dəyərinin mahiyyətini anlamır, qızlar ailə toxunulmazlığının nə demək olduğunu başa düşmür. Ailədəki birlik, bütövlük anlayışı təhrif olunur, tərəflər öz prizmasından baxır hadisələrə. Bu da ailə qavramının özülünü laxladır. Sosiallaşma zamanı insan üçün sosial həyat nə qədər vacib və zəruridirsə, sosial bir cəmiyyətin özəyini təşkil edən ailə institutu da bir cəmiyyət üçün bir o qədər önəmlidir. Bu mənada ailənin möhkəmlənməsi üçün atılacaq hər bir addım böyük əhəmiyyət kəsb edir. Çünki güclü ailə ilə güclü cəmiyyət arasındakı bağ bir-biri ilə düz mütənasibdir. İkisindən birinin zəifliyi digəri üçün təhlükədir.

Boşanma ailənin cəmiyyətdəki statusunu itirməsi ilə başlayır. Davamı aliment çəkişməsi, mülk davası, uşaq himayəsi kimi davalar fonunda ucuz bazar qovğasına dönür. Boşanmalarının səbəbini bir çox hallarda böyüklərin müdaxiləsi kimi hallandırırlar. İş o yerə gəlib çatıb ki, ailə məsələlərindən birbaşa məsul olan Komitə rəsmisi də belə açıqlama verir. Gənc nəslin düzgün yetişdirilməməsi, qızların böyük sözünə dözümsüzlüyü, xəyanət, etibarsızlıq, empatiya hissinin yox olması kimi səbəblər kənara itələnərək bütün günahlar ağbirçək-ağsaqqal üzərində cəmləşir. Böyük məsləhəti ailələrə müdaxilə, tövsiyəsi zorakılıq hesab olunur.

Niyə bu barədə yazdım? Ötən gün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında deyib ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanuna təklif edilən dəyişiklə gələcəkdə qayınana, qayınata kənardan ailəyə müdaxilə edəcəkcə, bu, məişət zorakılığı hesab ediləcək.

Qayınana-qayınata müdaxiləsi dedikdə komitə rəsmisi nəyi nəzərdə tutur? Belə anlaşılır ki, böyük məsləhətini, ağsaqqal-ağbirçək tövsiyəsini də müdaxilə hesab edəcəklər. Çünki müdaxilə dedikdə söhbətin təkcə fiziki zorakılıqdan getmədiyi aşkardır. Siz təsəvvür edirsiniz bu nə deməkdir? Bu böyük bir institutu yerlə-yeksan etmək deməkdir. Bu ailənin qurulmamış dağılması deməkdir. Hər fürsətdə böyüklərin üzünə ağ olmağa, əks-hücuma hazır gəlinin bu fürsəti dəyərləndirməyəcəyini demək olarmı? Təbii ki, yox. Təəssüflə demək məcburiyyətindəyəm, böyüyə hörmət etməyən nəsil formalaşıb. Bunu xalqın içində olan, ətrafında minlərlə qız-gəlini müşahidə etmək iqtidarında olan biri, eyni zamanda daim bu kimi məsələlərdən yazan, araşdıran, fikir bildirən ictimai birlik eksperti kimi əminliklə deyirəm. Gənclər böyük məsləhətinə qarşı dözümsüzdür, məsləhəti əmr, tövsiyyəni göstəriş zənn edirlər. Qabağından yeməz gənc nəsil formalaşır və biz heç nə edə bilmirik.

Ağsaqqalı, ağbirçəyi həyatımızdan qovub çıxarmağa niyə bu qədər can atır Komitə? Ailə quran gənclərə böyüklük edə bilməyəcəksə, o ataananın nə dəyəri qalır ailədə? Mən sözün həqiqi mənasında, böyüklükdən danışıram. 20 yaşlı gənclə 50-60 yaşlı bir insanın dünyagörüşü, bildiyi eyni deyil, məsləhət verməyin nəyi pisdir? Evləndirəndə, gəlinə xərc çəkəndə, zinət, daş-qaş alanda, ən bahalı restoranda toy edəndə, ev alıb yerləşdirəndə qayınana-qayınata əziz olur, məsləhət verəndə düşmən? Boşanmaların qarşısını almaq məqsədi ilə təklif verildiyini iddia edir Komitə rəsmisi, bəs bu təklif qanuna çevrilərsə boşanmaların hansı həddə çatacağını təsəvvür edirsinizmi? Azalmayacaq, əksinə birə beş artacaq. Fəlakət bir mənzərə gözləyir bizi. Ağsaqqalı, ağbirçəyi gənc nəsildən uzaqlaşdırmaq, ailəyə yaxınlaşmasına icazə verməmək nə qazandıracaq bu cəmiyyətə?

Əgər qayınana, qayınata gəlinə qarşı fiziki-mənəvi zorakılıq edirsə, bu, əlbəttə ki, qanunla həllini tapmalıdır, tapır da. Biz bunun bir neçə nümunəsini görmüşük bu günədək. Amma evindəki yemək qazanının ağzını açdı deyə qaynanasını efirdə müzakirəyə çıxaran gəlinləri də gördük, gəlinin zivəyə asdığı paltarın sırasını bəyənməyib yenidən asan qayınananısın üzünü cıran gəlinləri də tanıdıq, qayınatasının önünə 1 stəkan çay gətirməyib "mən sizə qul gəlməmişəm" deyə çəmkirən gəlinlər də var.

Dünəndən sosial şəbəkələrin qadın qruplarında toy-bayramdır, çal-çağırdır. Qız-gəlinlər virtual platformalarda "biz bunu bacardıq" devizi ilə qol götürüb oynayır. Qayınanasını erməni, qayınatasını faşist kimi gözündə görənlərin şad günü idi. Dişi, dırnağı, alın təri ilə övladı üçün ev qurub, gəlin gətirib, barını görməyən ailə böyüklərinin arxasınca atan kim, tutan kim. Yüzlərlə qız, gəlin eyni şeyi yazırdı. Yaxşı, qoy bu qayınananın 5-i pis olsun, qoy qayınatanın 10-u betər olsun, bəs qalanlar? Gəlini ovcunun içində saxlayan bir qaynananın gəlininin də orada yazdığı cümlələri görəndə heyrətdən dondum. O gəlin ki, pambığa bükülüb, zərxarada saxlanıb, əlinə soyuq su dəyməyib, gözündən kirpik düşəndə qayınana, qayınata təşvişə düşüb, bir istəyinə min "baş üstə" deyilib.

Əslində, ənənəvi azərbaycanlı ailəsindəki parçalanma, nəsillər arası fərqlər, boşanmaların çoxalması, vətəndaş nikahlarının və atasız uşaqların getdikcə artması fonunda bu cür təklif heç də təəccüblü deyil. O vəziyyətin nəticəsi elə belə də olmalı idi. Azərbaycan kimi mental dəyərlərin, milli ənənələrin var olduğu ölkələrdə ailə quruluşu da əhəmiyyətini itirirsə, cəmiyyətin nə qədər aşındığını təxmin edin. Vətəndaş nikahı 10 il əvvəl nadir rastlanan vəziyyət idisə bu gün normal qarşılanır, efirə çıxıb başqa kişi ilə qaçan arvadı üçün ağlayan kişilər adiləşdi, boşanma statistikası haradan hara yüksəldi. Günah da ağsaqqalda, ağbirçəkdə görüldü.

Araşdırılmır. Araşdırılsa boşanmaların əslində böyüklərin müdaxiləsindən yox, başqa səbəblərdən olduğu üzə çıxacaq. Ay ərzində 1500-2000 nikah pozulur ölkə üzrə, dəhşətli rəqəmdir. Qoy bunun 30-40-ı qayınana faktorundan, qayınata müdaxiləsindən boşansın, bəs qalanı? Gənclərin tərbiyəsi, ailə əxlaqı, psixoloji vəziyyətləri, sosial rifahları, eqoları, olmayan empatiyaları, dözümsüzlükləri, xəyanət səbəbləri niyə araşdırılmır? Dağılan ailələrin məsuliyyətini ailə böyüklərinin üzərinə atanda əlaqədar Komitənin işi yüngülləşir?

Əksəriyyətimizin oğlu-qızı var, övladımızın ailəsində problem olanda məsləhət versək, çətin vəziyyətlərdə, krizis anında böyük kimi nəsə tövsiyyə etsək gəlin, ya kürəkən qaçıb polisə şikayət edəcək? Qanun da bizi gənc ailəyə zorakılıqda ittiham edib cəzalandıracaq? Döymədik, söymədik, incitmədik, sadəcə böyüklük etdik, yol göstərdik. Zorakılıq etmiş oluruq? Döyəndə, söyəndə onsuz da qanun o böyüklərin cəzasını verir, yeni təklif deməli müdaxilə adı altında başqa davranışları da zorakılıq hesab edəcək.

Təklif olunan dəyişikliklə ailədə böyük məsləhəti, tövsiyyəsi də ailəyə müdaxilə adı altında zorakılıq hesab ediləcək zənnimcə, bizim etirazımız bunadır. Minillərin dəyərini, ağsaqqalı, ağbirçəyi belə ayaqaltı etmək olmaz. Bu təklif ilə minlərlə gənc qıza böyüyə qarşı dözümsüzlük aşılanır, hörmətsizlik öyrədilir. Kiçik bir mübahisədə, verilən hər hansı bir məsləhəti bəyənməyəndə nəfəsini polisdə dərəcək o gəlinlər. Ailələrin içi açılıb töküləcək, köhnə palan içi eşiləcək. Yaranacaq mənəvi böhranı təxmin etmək heç də çətin deyil. Sonra da əlimiz üzümüzdə "ailələr niyə məhv olur?" deyə təəccüblənəcəyik. Yaxşı, mən vurmadım, sən yıxılmadın, necə oldu bu qəziyyə?








# Azərbaycanın idman siyasəti: uğurlar və qələbələr

## Prezident İlham Əliyev: "Bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün"

Siyasi, iqtisadi, hərbi, mədəni və s. istiqamətlər üzrə Azərbaycanın əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan bir ölkəyə çevrilməsi və nailiyyətlərin əldə olunmasında Prezident İlham Əliyevin gərgin əməyi, yorulmadan çalışması, uzaqgörən xarici və daxili siyasəti dayanır. Müasir dünyada liderlik qabiliyyəti ilə seçilən Cənab Prezidentin ölkəyə rəhbərliyi dövründə Azərbaycan möhtəşəm inkişaf yoluna qədəm qoyub və əldə olunan uğurlarının təhlilinə nəzər salsaq görərik ki, Cənab İlham Əliyevin hər bir vədi əməli fəaliyyətində öz əksini tapıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir.

İdman ölkəsi kimi tanınan ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bakı Tennis Akademiyasının ərazisində idman hovuzu və məşq zalı da istifadəyə verilib. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür.




Təşkilatçılıqla yanaşı, ölkələrin idman sahəsində qazandıqları nəticələr də çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Azərbaycana "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının qalibi adını qazandıran amillər, bu sahədə qazanılan zəngin təcrübənin özünü doğrultduğunu göstərdi. MDB ölkələri zəhmətkeşlərinin beynəlxalq V İdman Oyunlarında Azərbaycan idmançıları 37 medal - 9 qızıl,12 gümüş və 16 bürünc medal qazandılar.

### "AZƏRBAYCAN DÖVLƏTİ DƏ SİZİ MÜKAFATLANDIRMAQDA TAM HAQLIDIR, ÇÜNKİ SİZ BUNA LAYİQSİNİZ"

İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Azərbaycan Prezidenti həmişə olduğu kimi, bu il də idmançılarımızı sevindirib. Belə ki, dekabrın 20-də Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 1 nəfər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 17 nəfər "Tərəqqi" medalı ilə təltif edilib. Bundan başqa, Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə 3 nəfərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib. Həmçinin ölkə idmanının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 4 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təyin edilib. İdman ictimaiyyətinin 29 nümayəndəsinə isə mənzil verilib. Bütün bunlar dövlətimizin idmançılara ayrılan diqqətinin bariz nümunəsidir. Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşündə çıxışında "Siz öz zəhmətinizlə dövlətimizin idman şöhrətini göylərə qaldırmısınız və Azərbaycan dövləti də sizi mükafatlandırmaqda tam haqlıdır, çünki siz buna layiqsiniz", - deyə bildirib: "Bu gün burada düzülən mükafatlar, mənzillərin orderləri, digər mükafat növləri sizə işğaldan azad olunmuş Xankəndi şəhərində tarixi futbol matçının fasiləsində təqdim edilir. Bu münasibətlə sizi ürəkdən təbrik etmək istəyirəm. Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını - uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar".




Azərbaycan xalqı qalib xalqdır və bu ifadəni işlədərkən böyük bir həqiqətin arxasında dayandığını görürük. Azərbaycan tarixi ədaləti bərpa etdi. İdmançılarımız da idman arenasına çıxanda qalib ölkəni, müzəffər xalqı təmsil etdiklərindən qürurlanırlar.

### "AZƏRBAYCAN ŞƏHƏRİ OLAN XANKƏNDİ YAŞAYIR VƏ DİRÇƏLİR"

Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafına diqqət ayrılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. "Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi - Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir".

Sağlam bədəndə sağlam ruh olar, - deyiblər. Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır. Əlbəttə ki, insan ruhunun sabitliyi, baş verən hadisələrə psixoloji baxımdan düzgün yanaşması fiziki sağlamlıq faktoru ilə sıx bağlıdır. Sağlamlığı ən böyük nemətlərdənolduğundan hər bir insan onu qorumağı bacarmalıdır. İdmanla məşğul olmaq insan sağlamlığının qorunmasında, ruh yüksəkliyinin artmasında müstəsnadır. Ölkəmizdə gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanıldığından bu sahənin inkişafı istiqamətində mühüm qərarlar verilir və sənədlər imzalanır. Respublikamızın artan potensialı nəticəsində son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər, o cümlədən bir çox idman növləri üzrə dünya və Avropa çempionatları, dünya kuboku və Qran-Pri yarışları keçirilmişdir. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır.

Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi də bu sahənin, eləcə də həmin idman növlərinin inkişafına xidmət edir.

Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

### İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARDA İDMAN KOMPLEKSLƏRİ VƏ QURĞULARI İNŞA OLUNUR

Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafına diqqət ayrılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. İşğaldan azad edilmiş torpaqlarda da idmanı inkişaf etdirmək məqsədi ilə stadionlar, idman kompleksləri və digər idman qurğuları inşa olunacaqdır. Bu Vətən müharibəsində işğaldan azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapmaqdadır. Belə ki, Qubadlı rayonunda şəhər stadionu, uşaq-gənclər idman məktəbi, şahmat məktəbi, üç voleybol və 19 futbol meydançası yaradılacaq. Kəlbəcər rayonunda da gənclər və idmansevərlərin asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılacaq. Belə ki, şəhər stadionu, uşaq-gənclər idman məktəbi, şahmat məktəbi, güllə atıcılığı tiri və on futbol meydançasının yaradılması planlaşdırılıb. Şuşada şəhər stadionu, "Qarabağ" pioner idman düşərgəsi, uşaq-gənclər idman məktəbi, şəhər şahmat məktəbi, şahmat klubu, atıcılığı tiri, futbol və voleybol meydançaları inşa olunacaq. Bütün bu və ya digər görüləcək işlər idmanın kütləviliyinin təmin olunmasına müsbət təsirini göstərəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Ümummilli Liderin və Prezident İlham Əliyevin həyatında kitab və mütaliə

***Hələ XI əsrdə Yusif Xas Xacib Balasaqunlu türk dövlətçilik fikrinin geniş əks olunduğu "Qutadğu bilik" əsərində yazırdı: "Bəylər biliklə xalqa baş oldular. Ağılla elin işini yoluna qoydular". Bu sadə, amma ümumbəşəri fikirlərin qələmdən çıxmasından min il əvvəl də, sonra da bir ehkam dəyişməz olaraq qalır: xalqa baş ola bilmək üçün gərək, başda duranın biliyi, ağlı ola.Əbəs yerə deməyiblər ki, savadsızın ən pisi, ən qorxulusu-əlində hakimiyyət olanıdır!***

Bəşəriyyətin ən böyük ixtiralarından olan yazının yaranması ilə ənənəvioxu prosesinin əsası qoyulub, kitabçapı ilə isə oxu prosesi daha da təkmilləşərək, günümüzə qədər bir sıra dəyişikliklərə məruz qalıb.

Dahi Azərbaycan şairi Nizami Gəncəvi az qala dünyanın yarısını



**Adilə Abdullayeva, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Kitabxana İnformasiya Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru**

fəth etmiş İskəndərin obrazını yaradarkən, ona alim və peyğəmbər ipostası da vermişdi. Çünki Nizaminin poemasında hədsiz dərəcədə güclü, misilsiz rəşadət və döyüş bacarığına malik İskəndər, oxumağı, biliyi, savadı qələbənin əsas rəhni kimi görürdü.

Görkəmli alimlər, filosoflar, ədiblər, ictimai-siyasi xadimlər, dövlət başçıları həm öz dövrlərində, həm də həyatla vidalaşdıqdan sonra diqqət mərkəzində olub və onların mütaliə vərdişləri daim maraq doğurub,tədqiq edilib. Mütaliə bu dahi şəxsiyyətlərin dünyagörüşündə, intellektual inkişafında, elmi, ictimai, siyasi fəaliyyətində əhəmiyyətli yerə malik olub.

Kitab oxumağı sevən liderlər sırasında dünya miqyaslı nəhəng siyasətçi, Azərbaycanın dövlətçilik tarixində müstəsna xidmətləri olmuş ulu öndər Heydər Əliyevin adı ön cərgədə çəkilməlidir. Azərbaycan tarixinin yetişdirdiyi qüdrətli şəxsiyyətlərdən biri kimi, ümummilli lider Heydər Əliyev (1993-2003) ölkəyə rəhbərlik etdiyi illərdə kitab nəşrinin və kitabxanaların inkişafına, kitab fondlarının yerli və xarici nəşrlərlə zənginləşdirilməsinə böyük töhfələr verib.

Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin, milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə və dünya ictimaiyyətinə tanıdılmasına böyük diqqət və qayğı ilə yanaşan Heydər Əliyev kitaba böyük sevgi bəsləyib, hər zaman gənclərə ləyaqətli, intellektual və bilikli vətəndaş kimi ölkənin rifahına xidmət edə bilmək üçün daim öz üzərində çalışmağı, yeni məlumatlar əldə etməyi, kitab oxumağı tövsiyə edib.

1995-1997-ci illərdə 4 dəfə Milli Kitabxanada olmuş dahi lider Heydər Əliyevin kitabxananın fonduna bağışladığı kitablar Milli kitabxananın fondunda qorunan qiymətli kolleksiya kimi sərgi zalında sərgilənir və eyni zamanda, il ərzində müxtəlif idarə və təşkilatlarda səyyar kitab kolleksiyası kimi nümayiş etdirilir. Həmin kitabların məzmununa nəzər saldıqda burada Azərbaycanın tarixinə, coğrafiyasına, mədəniyyətinə dair, Türkiyə və Cənubi Azərbaycan ədəbiyyatına, ədəbiyyatşünaslığa, milli adət və ənənələrə, kənd təsərrüfatına, İslam dininə və müxtəlif dinlərə, dünya ölkələrinin tarixinə və ictimai həyatına, Qarabağın tarixinə dair Azərbaycan, rus və dünya klassiklərinin və müasir yazıçıların əsərlərinə, uşaq ədəbiyyatı nümunələrinə və digər nəşrlərə rast gəlmək olur.

Ulu Öndərin çıxış, nitq və müsahibələrində səsləndirdiyi fikirlər, natiqlik məharəti, müxtəlif situasiyalarda verdiyi doğru qərarlar, siyasi uzaqgörənlik, erudisiya, intellekt və liderlik keyfiyyətlərinin formalaşmasında onun oxuduğu kitablar öz təsirini göstərib.

Heydər Əliyev müxtəlif çıxış, nitq və məruzələrində hər zaman Azərbaycanın və türk dünyasının görkəmli ədiblərini, yazıçı və şairlərini, alim və ictimai fikir sahiblərinin, maarifpərvər ziyalıların ölkəmiz, xalqımız, türk dünyası və ümumilikdə bəşər mədəniyyəti üçün bəxş etdiyi töhfələrdən danışaraq İbn Sina, N.Tusi, Firdovsi, Nizami, Nəvai, Y.Əmrə, Məhtimqulu, Abay, M.Kaşğari, M.Füzuli, İ.Nəsimi, M.P.Vaqif, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə, M.S.Ordubadi, Ü.Hacıbəyov, H.Cavid, S.Vurğun, Homer, Şekspir, Puşkin kimi məşhur ədiblərin əsərlərini mütaliə etməyi, yaşatmağı gənc nəslə tövsiyə edib [4].Müxtəlif müsahibələrində ən çox sevdiyi şeirin Səməd Vurğunun "Azərbaycan" şeiri, ən çox sevdiyi şairin Məhəmmədhüseyn Şəhriyar, ən çox sevdiyi pyesin Cəlil Məmmədquluzadənin "Ölülər"pyesi, ən çox sevdiyi dramaturqun Hüseyn Cavid, ən çox sevdiyi jurnalın isə "Molla Nəsrəddin" olduğunu bildirib.

Ulu Öndər siyasətinin layiqli davamçısı,Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəkası, intellekti, liderlik keyfiyyətləri, siyasi iradəsi və uzaqgörənliyi ilə dünya tarixinəadını qızıl hərflərlə yazdırmış liderlər sırasındadır. Modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirən Prezident İlham Əliyev həm də çox geniş mütaliə marağı olan oxucudur.

Hələ Moskva Beynəlxalq Münasibətlər İnstitutunun tələbəsi ikən Britaniyanın siyasi tarixşünaslığı ilə maraqlanan İlham Əliyev bununla əlaqədar tez-tez İnstitutun xüsusi fondunda saxlanan xarici nəşrləri, beynəlxalq elmi jurnalları, dövri mətbuatı oxuyurdu. Bu barədə İnstitut kitabxanasının Dövri nəşrlər şöbəsinin müdiri Raisa Polevoy bir müsahibəsində qeyd edir. O bildirir ki, İlham Əliyev hər gün xüsusi fondda saxlanılan ABŞ və Britaniya nəşrlərini oxumaq üçün kitabxanaya gəlir və vaxtının böyük hissəsini kitabxanada keçirirdi. Onun müsahibəsində liderin təkcə Britaniya ilə bağlı 50-yə yaxın kitab oxuduğu da qeyd edilir.

Mütaliə etdiyi, araşdırdığı kitablar, dövri nəşrlər sayəsində İlham Əliyev 1985-ci ildə Böyük Britaniyanın Liberal partiyası ilə bağlı dissertasiya işini uğurla müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsini alıb. Sonra İnstitutda elmi fəaliyyətini davam etdirərək müəllim kimi çalışmağa başlayıb. Dissertasiya işində istifadə olunmuş ədəbiyyat siyahısına nəzər salsaq görərik ki, burada 1931-ci ildə çap edilmiş nəşrlərdən tutmuş, 1985-ci il də daxil olmaqla 239 adda rus və ingilis dilində müxtəlif ölkələrdə nəşr edilmiş beynəlxalq münasibətlər, beynəlxalq hüquq, tarix, daxili və xarici siyasət, iqtisadiyyat, partiyaların fəaliyyəti barədə kitablar və başqa nüfuzlu dövri nəşrlər



yer alıb. Bu mənbələr də uzaqgörən liderin geniş və əhatəli mütaliə dairəsindən xəbər verir [13, s. 198-206.].

2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi dövründə ölkə başçısı 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın haqlı mövqeyini, müharibənin başlanma səbəblərini sistemli şəkildə siyasi uzaqgörənliklə auditoriyanın diqqətinə çatdırdı. Bu müsahibələrin mətni ilə tanışlıq, verilən "sifarişli", bəzi ittiham xarakterli suallara prezident İlham Əliyevin tutarlı və əsaslı cavabları beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bilməsinin göstəricisi, hərtərəfli biliyinin vəgeniş mütaliə dairəsinin bariz nümunəsi idi. Bu müsahibələr, silsilə bəyanatlar, müxtəlif beynəlxalq görüşlərdə liderlik mövqeyi Azərbaycanın informasiya savaşında da qələbəsini təmin etdi.

Onu da qeyd edək ki, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, nəsildən-nəslə ötürülməsində və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi, fondların yeni nəşrlərlə zənginləşdirilməsi, virtual kitabxanaların yaradılması, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dövlət siyasətinin əsas prioritetləri sırasında xüsusi yer tutub.

Sistemli və geniş mütaliə,bu mütaliədən əldə olunanlardanhər zaman xalqın rifahı, tərəqqisi, ədalətli qələbəsi naminə istifadə etməkgörkəmli və uzaqgörən dövlət xadimlərinin ictimai-siyasi görüşlərinin əsasını təşkil edir. Qutadğu bilik - yəni qutluya, yaxşıya, zəfərə aparan bilik də elə o bilikdir ki, bəşər övladı, o cümlədən xalqına baş olanlar onu faydalı əsərlərdən, kitablardan oxuyub əxz edir.

# Hansı ailələr dağılmağa məhkumdur?

*SOSİOLOQ AÇIQLADI*

"Bu gün cəmiyyətin ailə institutunda məzmun və struktur dəyişmələri baş verməkdədir. Bu da cəmiyyətlərin dialoqu ilə bağlıdır. Bilirsiniz ki, Azərbaycan uzun müddət sovetlər sistemində mövcud olmuşdur. Sovetlər sistemi qapalı, Azərbaycan cəmiyyəti də ənənəvi bir cəmiyyət idi. Ənənəvi cəmiyyətlərdə əsasən ənənələr əsasında mövcud olur. Belə bir cəmiyyətdə Azərbaycan cəmiyyətinin xüsusi özəllikləri var idi, ailə institutu da özünəməxsus idi". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib.









Üzeyir Şəfiyev sözlərinə belə davam edib: "Azərbaycan ailəsi həmişə dayanıqlı və çox möhkəm ailə olub. Ancaq qloballaşma şəraitində təkcə fiziki sərhədlər deyil, həm də mənəvi sərhədlər açıldı. İnsanlar müxtəlif cəmiyyətlərlə əlaqəyə, dialoqa girdi. Müxtəlif seriallar, filmlər vasitəsilə cəmiyyətin bütün institutlarına, həmçinin ailə institutuna da kənardan təsirlər olur. Beləliklə də, ailə institutunda müxtəlif dəyişikliklər baş verdi. Həm də qadınların cəmiyyətdə statusu dəyişməyə başladı. Əgər əvvəllər qadınlar iqtisadi fəal deyildilərsə, daha çox iqtisadi asılılığa görə ailədə dözümlülük, tolerantlıq nümayiş etdirirdilərsə, artıq qadınlar iqtisadi fəal qüvvəyə çevriliblər.

İndi qadınların məşğulluğu təmin olunur, qadınlar əvvəlki qaydalarla yaşamaq istəmir, əvvəlki qaydalarla məişətdə, ailə daxilində dözümsüzlük nümayiş etdirir. Daha müstəqil, daha sərbəst olmaq istəyirlər. Əvvəlki kimi kişilərin kaprizlərinə, yaratdığı çətinliklərə, ailənin ümumi çətinliklərinə dözmək istəmirlər. Bütövlükdə ailə ilə bağlı düşüncələr dəyişib. Bu düşüncələrin dəyişməsinə kənardan gələn seriallar, filmlər, eyni zamanda kanallarda ailə dəyərlərini dağıdan xarici düşüncələri təşkil edən verilişlər var. Bu verilişlər Azərbaycanda ailə dayanıqlılığına mənfi təsir göstərir.

Bununla yanaşı ailələrin dağılmasında əsas faktorlardan biri də budur ki, ailələr bəzən hesabla qurulur. Hesabla qurulan ailələr bilirsiniz ki, bir müddət keçəndən sonra xəyal qırıqlığı yaşayırlar. İstədiklərinə nail olmayanda, xəyalları suya düşəndən sonra boşanmağa qərar verirlər. Ona görə də, ailənin daha dayanıqlı, sabit, mehriban olması üçün sevgi, tərbiyə əsaslı olmalıdır".

Sosioloq bildirib ki, əvvəllər Azərbaycan ailəsi mürəkkəb idi: "Yeni qurulmuş ailələr nənə və baba ilə yaşayırdı. Bu da bəzən ailənin böhranlı anlarında böyüklər pozitiv, humanist müdaxilə edirdilər, tənzimləyə bilirdilər. İndi ailələr tək yaşayırlar. Bəzən də 3-5 ildən sonra ailə böhranları yaşanır. Ailə böhranları olduğu üçün də, buna tab gətirə bilmirlər. Beləliklə, ailə pozulur. Çox yaxşı olar ki, ailə böhran mərkəzlərinin sayı çoxalsın. Ailələrlə işləyən psixoloqlar, sosial işçilər bu işlərə cəlb olunsunlar. Yaxşı olar ki, münaqişəli ailələrin təkcə paytaxtda yox, regionlarda da qeydiyyatı aparılsın. Müvafiq icra strukturları tərəfindən münaqişəli ailələrlə ailə böhran mərkəzləri iş aparsın, ailə qadın komitəsinin regionlarda özəkləri yaradılsın. Eyni zamanda orta və ali məktəblərdə ailə dərsləri keçirilsin. Bu ailə dərslərində gənclər ailə həyatına, ailənin çətinliyinə, böhranlı şəraitinə hazırlansınlar, ailə dəyərləri haqqında məlumatlandırılsınlar. Yaxşı olar ki, televizorda bir neçə nəsil örnək ailələr var ki, onlarla bağlı verilişlər verilsin. Həmin ailələr böhranlardan necə keçiblər, həyat hekayələrini danışsınlar. Hesab edirəm ki, bunlar faydalı olar.

Biz boşanmaların statistikasını təhlil edəndə görürük ki, xəyanət əsaslı boşanmaların sayı xeyli çoxalıb. Bu da, şübhəsiz, son illərdə sosial şəbəkələrin istifadəsindən sonra özünü büruzə verib. Bir tərəfdən sosial şəbəkələr bu işi artırır, digər tərəfdən də xəyanətin aşkarlanmasında rolu var. Bu baxımdan, yaxşı olar ki, ailələr bir-birlərinə sabitqədəm olsunlar. Bəzən bilmədən emosiyalara qapılaraq xəyanət edirlər. Cütlüklər yaxşı fikirləşsinlər, çünki boşanmış ailələr sonradan peşman olurlar. Əfsuslar olsun ki, sonrakı peşmançılığın faydası olmur. Ailələr övladlarını tərbiyə edərkən düzgün məlumatlandırmalıdırlar. Ailə quran cütlüklər qan testi ilə yanaşı, həm də psixoloji müayinədən keçirilsin. Çünki ailədaxili münaqişələr göstərir ki, bəzən cütlüklərdən biri və ya hər ikisi psixoloji cəhətdən ailə qurmağa uyğun deyil. Psixoloji yardım haqqında qanundan çıxış edərək psixoloji testdən keçirilsinlər. Bu da hesab edirəm ki, ailə dayanıqlılığına yaxşı təsir göstərə bilər.

Digər tərəfdən gənc ailələrə sosial-iqtisadi dəstək paketləri müəyyənləşdirilsin. Boşanmaların bir qismi də çətinliklərdən doğan problemlərdir. Bəzən gənc ailələr mənzil ala bilmir, kirayələrdə gün keçirirlər. Bu da konfliktlər yaradır, uçurumu daha da dərinləşdirir. Bununla bağlı gənc ailələrə sosial dəstək tədbirləri, mənzil şəraitinin yaxşılaşdırılması, regionlarda pay torpaqlarının ayrılması olsa, daha yaxşı olar. Bundan başqa da ipoteka şərtləri yumşala və daha böyük kateqoriyaları əhatə edə bilər. Çox yaxşı olar ki, bu kateqoriyaların siyahısı daha da genişləndirilsin və bütün gənc ailələr üçün əlçatan olsun.

Təəssüflər olsun ki, biz hələ boşanmaları müşahidə edəcəyik. Təsir göstərən faktorlar çoxdur. Kənar təsirlər var, gənclərin düşüncəsində dəyişmələr var. Bunlarla bağlı kompleks tədbirlər görülməlidir. Bu tədbirlər ailənin sabitliyinə yönəlməlidir. Ştat vahidlərinə ehtiyac var ki, ailələrlə işləyən psixoloqlar olmalıdır. Həm də böyüklərin pozitiv və humanist yanaşmasını bərpa etmək lazımdır. Azərbaycanın çox gözəl ağsaqqal və ağbirçək arxetipləri var. Bunlar da ailə dayanıqlılığına töhfə verə bilər. Biz çalışmalıyıq ki, yenə də ailələr təsadüfi əsaslarla qurulmasın. Ailə həm cəmiyyətin, həm də dövlətin qayğısı ilə əhatə olunsun. Sosial dəstək layihələrinin olmasına ehtiyac var".

***Ayşən Vəli***

## "Dini radikalizm cəmiyyətə təhlükədir"

*ŞƏRH*

"Müstəqilliyimizin ilk illərində dini sahədə boşluq yarandı. Bu boşluqdan radikal dini qruplar istifadə etdi və insanları islam dinindən istifadə edərək dini radikalizmə çəkməyə başladı. Çox təəssüflə qeyd etmək istəyirəm ki, bu gün də dini radikalizmin təsiri altına düşən şəxslər olur. Amma son illər din-dövlət müstəvisində böyük irəliləyişlərə nail olunub". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.



Deputat bildirib ki, məhz qəbul olunmuş "Dini etiqad azadlığı hgaqqında qanun" islam dinini radikal cərəyanlardan ayırmağa və insanların saf islam dini dəyərlərinə istiqamətlənməsinə yol açmışdır. Hesab edirəm ki, din sahəsində çoxlu iş aparılmalıdır. İlk növbədə din sahəsi ilə məşğul olanların dini təhsilə malik olmasının əsas şərt olduğunu düşünürəm. Yəni, islam dinindən suiistifadə edərək radikalizmi yaymağa çalışan şəxslər insanlara dini təbliğat aparmamalıdır.

Dini təhsilin alınmasına maraqlı şəxslər üçün də ölkədə şərait yaranmışdır. İlahiyyat institutu və dini kolleclər fəaliyyətini davam etdirir. Bir müddət keçəndən sonra ölkədə dini təhsilli kifayət qədər kadr formalaşcağını heab edirəm. Bu da dini ayinlərin və məclislərin keçirilməsini müəyyən radikal maraqların xeyrinə yox, islam dini dəyərlərinə uyğun həyata keçirməsinə yol açacaq. Din sahəsinə maraq deyiləndə bu hər bir insanın azad seçimi olmalıdır. Çünki, heç kim heç kimi dini təhsil almağa məcbur etməməlidir. Əgər bir şəxs öz gələcəyini dini sahədə görürsə təbii ki, onun dini təhsilə yiyələnməsində heç bir məhdudiyyət yoxdur. Sadəcə ölkəmizdə dövlət maraqlarına qarşı olan radikal dini fəaliyyət qadağandır. Dini radikalizm cəmiyyətə təhlükədir və ona görə də onun yayılmasının qadağan olunmasını çox düzgün addım hesab edirəm".

## "Xankəndidə baş tutan matç Azərbaycanın bütövlüyünün simvolu idi"




"Xankəndidə keçirilən futbol matçı hər hansı bir idman deyil, siyasi hadisə idi. Bu, sadəcə olaraq Azərbaycan dövlətini maraqlandıran bir hadisə deyildi. Dünən Azərbaycanı aşan və bir çox qlobal şəbəkələri maraqlandıran məsələ baş tutdu. Çünki zamanında Azərbaycanın başına belə edilən bu separatizm xəstəliyi xüsusi olaraq uzunmüddətli düşünülmüşdü ki, dövlətimizə hər zaman təzyiq mexanizmi kimi qalsın və qabıq tutmayan yaraya çevrilsin. Bu yaranı qanatmaqla Azərbaycana təsir etməyə çalışırdılar". Bu sözləri SİA-ya açıqlamasında politoloq Natiq Miri deyib. Onun sözlərinə görə, dünən Xankəndidə baş tutan matçda Prezident İlham Əliyevin topa zərbəsi Azərbaycanın başına belə kimi hörülmüş separatizmə vurulan zərbə idi: "Eyni zamanda, dövlət başçısı topa zərbə vuraraq onu Mərkəzi Ordu İdman Klubuna, yəni orduya ötürdü. Bu da öz növbəsində böyük bir anlam və mesaj daşıyır. MOİK-ə ötürmə etməklə artıq topun orduda olduğuna işarə etdi ki, bu da Azərbaycana qarşı düşmənçilik edən bütün güclərə ciddi bir mesaj oldu".

Politoloq sözlərinə davam edərək bildirib ki, bununla yanaşı, dünənki hadisə Azərbaycanın bütövlüyünün simvolu, həmçinin qürur mənbəyi olaraq xalqımıza bir mesaj oldu: "Xalqımız özünə qayıdanda çox böyük olur. Bu məsələ bundan sonra da inkişaf etməlidir. Ən azından televiziyada hansısa şou xarakterli mənəviyyatı pozan verilişlərdənsə, insan mənəviyyatına xidmət edən, Azərbaycanın ən böyük dəyəri olan ailə institutunun inkişafı ilə bağlı təbliğatın olduğu ortaya qoyuldu. Bunun üçün bütün Azərbaycan cəmiyyətinə və ailəsinə qarşı mübarizə aparan xristian dünyasının yalançı təbliğlərinə qarşı xalqımız da özünə qayıtmaqla ailə dəyərlərimizi təbliğ etməliyik. Yəni, dünənki hadisə hər birimizə yenilənmə mesajı idi. Əgər bu gün bütövləşə bilmişiksə, deməli yenilənib özümüzə qayıtmalıyıq".

***Ləman Sərraf***

# Moskva göz yaşlarına inanmır

## İrəvan özünü dalana sıxışdırdı



Geridə qalan həftə Moskvada KTMT-nin bir neçə tədbiri keçirilib. Rusiyanın patronajlığıyla təşkil edilən beynəlxalq tədbirləri boykot edən Ermənistan bu dəfə də KTMT-nin iclaslarına getməkdən imtina edib. Rəsmi Moskva Ermənistanın siyasətindən narahatdır və müttəfiqinin hərəkətləri onları qıcıqlandırır. Sankt-Peterburq Dövlət Universitetinin professoru, rusiyalı politoloq Stanislav Tkaçenko məsələyə münasibət bildirib. Qeyd edib ki, erməni diplomatiyasının müttəfiqindən uzaqlaşma siyasəti Rusiya üçün sürpriz deyil: "Rusiyada Ermənistanla bağlı mövqe iki səbəblə izah olunur. Birincisi, İrəvan Rusiyanı Ermənistanın uğursuzluqlarında günahlandırır. Onlar Qarabağın təhvil verilməsini Rusiyanın ayağına yazmağa çalışırlar. İkincisi, Ermənistan kollektiv Qərbə arxalanır. Bu mərc risklidir və strateji nöqteyi-nəzərdən tamamilə perspektivsizdir, bunu Ukrayna və Moldova nümunələri də təsdiqləyir".





### Tkaçenko: "İndi Kreml və Rusiya Xarici İşlər Nazirliyi maraqla gözləyir ki, İrəvan indiki kursun Ermənistanın təhlükəsizliyi üçün nə qədər fəlakətli olduğunu başa düşsün"

Lakin Tkaçenkonun fikrincə, Paşinyan və onun yaxın ətrafı, möcüzənin baş verə biləcəyi illüziyasına inanır: "Onlar daha "Qarabağ fəlakətində Rusiyanın günahı" ilə bağlı əsassız bəyanatları müzakirə etmək istəmirlər. Düşünürlər ki, hər şey deyilib. İndi Kreml və Rusiya Xarici İşlər Nazirliyi maraqla gözləyir ki, İrəvan indiki kursun Ermənistanın təhlükəsizliyi üçün nə qədər fəlakətli olduğunu başa düşsün. Ona görə də parlament dialoqunda iştirakdan imtina yalnız İrəvanın mövqeyinin dəyişmədiyini təsdiqləyir. Moskvada onlar artıq buna təəssüflənmirlər, sadəcə olaraq, İrəvanda cərəyan edən dramı maraqla izləyirlər".

### Neyjmakov: "Moskva ilə İrəvan arasında fikir ayrılığı var"

Rusiya Siyasi və İqtisadi Kommunikasiyalar Agentliyinin analitik layihələr üzrə direktoru, rusiyalı politoloq Mixail Neyjmakovun fikrincə, KTMT Parlament Assambleyasının iclasında Ermənistan nümayəndə heyətinin iştirak etməməsi də bu məsələdə israrlı olduğuna dair siqnallardan biridir: "Moskva ilə İrəvan arasında fikir ayrılığı var. Məsələn, 2023-cü il dekabrın 14-də İrəvanda Ermənistanın Yüksək Texnologiyalar Sənayesi Nazirliyi ilə Rusiyanın Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi İnformasiya Vasitələri Nazirliyinin nümayəndələri arasında ikitərəfli məsləhətləşmələr baş tutub. Tərəflər Rusiya telekanallarının Ermənistanda yayımı ilə bağlı müzakirələr aparıblar. Bildiyiniz kimi, Rusiya televiziya kanallarında yayımlanan bir sıra verilişlər (məsələn, Nikol Paşinyana həsr olunmuş "Varis Tuttinin kuklaları" verilişi) İrəvanda kəskin reaksiyaya səbəb olub. 2023-cü ilin sonlarında erməni mətbuatı Rusiya televiziya kanallarının ölkədə yayımının dayandırılmasını müzakirə edib. Bununla belə, respublikanın yüksək texnologiyalar sənayesi naziri Robert Xaçatryanın bu məsləhətləşmələrdən sonra mediaya verdiyi şərhlər belə bir qənaətə gəlməyə imkan verir ki, hələlik, buna ehtiyac görmürlər".

### "Bu, o demək deyil ki, münasibətlərdə soyuqluq yenidən güclənə bilməz"

Politoloqun sözlərinə görə, "Rosselxoznadzor" Ermənistandan tədarük edilən bir sıra ərzaq məhsulları ilə bağlı iradlar bildirib. 2023-cü ilin noyabr ayının sonunda Ermənistandan bitkiçilik məhsullarının tədarükünə qoyulan qadağının aradan qaldırılması üçün dekabrın əvvəlində danışıqlar aparılıb. Moskvada "Rosselxoznadzor"la Ermənistanın Qida Təhlükəsizliyi Müfəttişliyinin rəhbərləri fikir ayrılıqlarını yumşaltmağa və ortaq dil tapmağa çalışıblar. Moskvada KTMT Parlament Assambleyası ilə paralel olaraq İrəvanda Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Rusiya və Ermənistan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclası keçirilib. Görüşlər zamanı Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçukun iştirakı ilə tərəflər regionda nəqliyyat kommunikasiyalarının açılmasını müzakirə ediblər: "Yeni Ermənistan nümayəndə heyətinin KTMT PA-nın işində iştirak etməməsinə və Moskva ilə İrəvan arasındakı fikir ayrılıqlarına baxmayaraq, biz hələ də tərəflər arasında təmasların müəyyən intensivliyini müşahidə edirik. Bu, o demək deyil ki, münasibətlərdə soyuqluq yenidən güclənə bilməz və dialoq minimuma endirilə bilər. Lakin burada bir məsələ də var ki, tərəflər dialoq imkanlarını buraxmadan siyasi mövsümü başa vurmaq istəmirlər. Buna baxmayaraq, Ermənistanın yaxın gələcəkdə KTMT-nin fəaliyyətində iştirakı ilə bağlı biz "total diplomatik müharibə"dən daha çox güzəştə getmək cəhdlərini müşahidə edirik".

***Afət Tahirqızı***

---



**MƏTANƏT**

# AXCP-MÜSAVAT: Oxu, oxuma!

**30 ilin partiyaları seçkiyə nə üçün hazır deyillər, bu, çox maraqlıdır. Axı seçkiyə hazırlıq nəyə deyilir, bu, daha maraqlıdır. Səni kim dəstəkləyəcəksə, gələn il də dəstəkləyəcək, ondan bir il sonra da. Belə isə seçkidən imtina etmək nə deməkdir? Axı seçki bu partiyalara özlərini göstərmək, varlıqlarını bir daha nümayiş etdirmək imkanı verir. Hər dəfə çoxsaylı tərəfdaşları olduğunu böyük iddia ilə vurğulayanlar üçün seçki bütün bu deyilənlərin təsdiqi olmayacaqdımı?**

Hə, başqa bir məsələ də var axı. Oxu və oxuma məsələsi. Əslində hər iki partiya mənsubları seçkilərin elan olunduğu gün bəlkə də sevincdən gecə səhərədək yatmayıb. Çünki 30 ildir, bunlar hər seçkidə ümidlərlə yaşayır, lakin seçki sonrası ümidləri sulara düşür. Lakin "Allahdan ümid üzülməz",- deyib növbəti seçkilərdə yenidən baş qaldırırlar. Lakin bir-iki seçkidir ki, onları iştirak etməyə qoymurlar. AXCP-Müsavat da, necə deyərlər, kürəklərini yerə vurmaq istəməyib, bunun adını qoyurlar boykot. Lakin bu, əslində belə deyil. Hər iki partiya seçkidə canı-könüldən iştirak etmək istəyir, sadəcə icazələri verilmir. Elə bu dəfə də aldıqları qara xəbər arzularının üzərindən qara bir xətt çəkdi. Qranddaşları buyurdu ki, oxuma. Yəni seçkidən çəkil, iştirak etmə.

İllərdir, havadarlarının "oxu, oxuma" əmri ilə "Fatı qalx, Fatı otur" missiyasını həyata keçirən AXCP-Müsavat ayrılmaz cütlüyü belə olan anda daha nə deyə bilərdi ki...

Yığışıb qurultay keçirənədək bir daha da düşünüb-daşındılar. Belə bir qənaətə gəldilər ki, əslində qərbdaşları doğru əmr buyurur ki, oxuma. Guya oxumuş nə olacaqdı ki. Bu avaza məntəqələrə heç bir nəfər də yaxınlaşmayacaqdı, bu partiyalar da olub-qalan nə "nüfuzu" vardısa, 7 fevralda itirib çəkilib bir küncdə fikrə dalacaqdı. Çünki illərdir, bu partiyalar yoxdur. Azərbaycan vətəndaşı bu adda partiyaları 90-cı illərdə gömüb. O 90-cı illər ki, vədlərin biri bir qəpikdən sırınırdı camaata. Yalanlar isə bu vədlərin əsas leymotivini təşkil edirdi. Camaatı meydanlara səsləyən, yayın istisində, qışın soyuğunda onların saatlarla günün, şaxtanın qarşısında qalmasına səbəb olan bu partiyalar bax bu xalq üçün nə edə bildilər? Heç nə etmədilər, hələ üstəlik ölkədə görülən işlərə də qara örtük salmağa cəhd göstərdilər, lakin bunun da heç bir faydası olmadı. Çünki xalq kimin itirdiyini, kimin qazandığını, kimin kimlərin səhvlərini düzəltdiyini yaxşı bilir. Və qarşıdakı seçkilərdə onlarla namizəd olsa belə, onlar arasından kimi seçməyi də artıq çoxdan müəyyən edib.

Siyasi partiyaların üzərinə düşən vəzifələr var. Onlardan elə başlıcası da seçkilərdə iştirakdır. Artıq tək funksiyası seçkilərdə iştirak etmək olan AXCP-Müsavat bunu da boykot edəndən sonra fəaliyyətləri, varlıqları nədən ibarətdir, görəsən. Politoloq Yusif Bağırzadə də bu barədə fikirlərini mətbuata açıqlayıb: Siyasi partiyaların birinci funksiyası seçkilərdə iştirak etməkdir. Xüsusən, müxalif partiya iqtidara gəlmək, yaxud qanunverici orqanda təmsil olunmaq üçün bütün seçkilərdə aktiv iştirak etməlidir. Siyasi fəaliyyətin ana qayəsi, təməl bazası budur. Digər bir tərəfdən isə "Siyasi Partiyalar Haqqında" yeni Qanun istənilən səviyyəli seçkilərdə iştirakı partiyaların qarşısında bir vəzifə kimi qoyur. Bu baxımdan seçkiləri boykot qərarı ilə çıxış etmək həm də üzərinə düşən vəzifələri icra etməmək anlamına gəlir.

Belə qənaətə gəlmək olar ki, AXCP-Müsavati bilə-bilə belə bir oyuna gətirirlər ki, narazılıq, ixtilaf yaransın. Bu iki partiya isə yenə də qranda satıldı. Beş günlük dünyada "oxu, oxuma" əmri ilə yaşamaq nə deməkdir, bunu AXCP-Müsavat heç düşünürmü?

# Rusiyalı ekspert: ”Azərbaycan ABŞ-ı 2 dəfədir yerinə oturdur”

## Vitali Arkov: "Putin, Ərdoğan, Si Cinpin, Əliyev və Orban yeni formasiyanın siyasətçiləri və yeni dünya liderləridir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*





**Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu yaxınlarda açıq şəkildə bildirdi ki, görünür, ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Brayenin noyabrda Azərbaycan əleyhinə bəyanatlarından sonra Bakı ilə Vaşinqton arasında diplomatik münaqişə həll olunmayıb. Hacıyev dekabrın 19-da bildirib ki, ABŞ hakimiyyəti Ermənistan-Azərbaycan nizamlanmasında vasitəçilik rolunu oynamaq istəyirsə, Azərbaycana qarşı fərqli mövqe tutmalıdır.**

O qeyd edib ki, ABŞ-ın Bakı ilə İrəvan arasında vəziyyətlə bağlı Ermənistanın xeyrinə olan birtərəfli mövqeyi Azərbaycan tərəfində narahatlıq yaradıb. Prezident köməkçisi hələ 1992-ci ildə ABŞ tərəfindən qəbul edilmiş Azadlığa Dəstək Aktına 907 saylı düzəlişin Bakını narazı salmaqda davam etdiyinə diqqət çəkib.

Bununla bağlı Hacıyev bildirib ki, Azərbaycan özünü təmin edən ölkədir və heç kimin köməyinə ehtiyacı yoxdur, lakin ədalətsizlik faktının özü suallar doğurur. Rusiyalı politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov Bakı ilə Vaşinqton arasında artan gərginliyi ”Moskva-Baku” portalına müsahibəsində şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Vitali Aleksandroviç, belə görünürdü ki, dövlət katibinin köməkçisi O`Brayenin Qarabağda antiterror tədbirləri ilə bağlı təxribat xarakterli bəyanatlarından ilə bağlı Bakı ilə Vaşinqton arasında yaranmış qalmaqal artıq aradan qalxıb, lakin, görünür, bu belə deyilmiş...**

- Azərbaycan hakimiyyətinin nümayəndəsinin ABŞ-a qarşı verdiyi açıqlamalar Moskvanın uzun müddətdir dediklərini təsdiqləyir: birqütblü dünya və ABŞ-ın hegemonluğuna son qoyulub.

Təsəvvür etmək çətindir ki, bir neçə il əvvəl Azərbaycan ABŞ-ın əleyhinə indiki kimi sərt çıxış edib. Dünyada vəziyyət başqa idi. Bu gün dünya qlobal geosiyasi transformasiyaları yaşayır və Azərbaycan son 3 ildə artıq 2 dəfə nümayiş etdirdi ki, o, neftlə zəngin olsa da, artıq o kiçik Qafqaz ölkəsi deyil və əvvəllər işğal olunmuş torpaqlarının geri qaytarılması və nəhayət, Qarabağ üzərində nəzarətin tam bərpası, onun ərazi bütövlüyü və suverenliyini təmin edəcək gücdədir.

Bu gün Azərbaycan ABŞ-a qarşı bu qədər açıq tənqidi və tamamilə haqlı davranan ilk dövlətlərdən biri olub. Bununla da Bakı öz suverenliyini nümayiş etdirir. Və ona hörmətlə yanaşmağı tələb edir. Burada heç bir təkəbbür, təxribat yoxdur, çünki Azərbaycana qarşı nalayiq davranışlara, mentor tonuna yol verən ABŞ olub ki, bu gün Bakı buna cavab verməyə qadirdir. Bu, hamının, hər şeyin ora-bura itələdiyi Ermənistan deyil.

Son bir neçə ildə Azərbaycan təkcə regional deyil, həm də daha geniş səviyyədə özünü təsdiq edən güclü dövlətə çevrilib. Ona görə də onun indiki mövqeyi formalaşıb: mənə hörmətlə yanaşacaqsınız. Azərbaycan hakimiyyəti mütəmadi olaraq xatırladır: ölkə bu gün heç kimdən kömək istəmir, özü başqalarına kömək edir, hətta təkcə regional deyil, həm də qlobal miqyasda gündəmi formalaşdırır.

Azərbaycan ordusu son dərəcə güclüdür. ABŞ-ın Bakının əhəmiyyət vermədiyi bu 907-ci düzəlişlə manipulyasiyanı davam etdirmək cəhdi isə torpağı onun ayaqları altından sürüşən və dünyanın artıq lider kimi qəbul etmədiyi qocalmış hegemonun arzusundan başqa bir şey deyil. Ölkələr tabe olmaqdan imtina edir, o isə getdikcə daha çox uğursuz təsir göstərir. Bakı nə vaxtsa ştatlardan hərbi yardım alıbmı? Bunu xatırlamıram.

Son illər dünya proseslərinin və yeni çoxqütblü dünyanın qurulculuğunun dönüş nöqtəsində olan Azərbaycan onun fəal qurucularından birinə çevrilib. Və bu əhəmiyyət skeptiklər tərəfindən aşağı salınmamalıdır, çünki onlar səhv edəcəklər. Köhnə dünya, dövlətlərin keçmiş liderlərinin köhnə arxitekturasının tarixə çevrildiyi bir vaxtda Azərbaycan regional və beynəlxalq arenada öz əhəmiyyətini daha çox nümayiş etdirir. Bir neçə il ərzində o, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatın- Qoşulmama Hərəkatının sədri kimi özünü parlaq lider kimi sübut etdi, qlobal gündəm və qlobal çağırışlar prizmasından bu dövlətlərin maraqlarını müdafiə etdi. Bu, bu strukturun inkişaf etməkdə olan üzv ölkələrinin ciddi diqqətini cəlb etmişdir. Son illər Azərbaycan türk və islam dünyasında, MDB məkanında, Avrasiya məkanında öz rolunu gücləndirir. Avropada da enerji siyasətinin şaxələndirilməsi zərurəti yarandığından Azərbaycana ehtiyac xeyli artıb. Əgər 10 il əvvəl Avropa liderləri Bakı ilə yaxınlaşmaq istəyinə görə Budapeşti ələ salırdılarsa, indi həmin Avropa ölkələri Azərbaycanla qarşılıqlı əlaqələri gücləndirmək üçün sıraya düzülürlər. Bu, yeni reallıqdır. Dünya dəyişir və Azərbaycan onu quranlardandır.

Bu gün qlobal mənada geosiyasi vəziyyətin dönüş nöqtəsində Qərb hegemonluğundan yorulanlar sürətlə artır. Onların arasında Rusiya, Çin, Türkiyə, Azərbaycan, İran və Şimali Koreya da var. Macarıstana baxın, bu gün o, bu və ya digər dərəcədə Avropada sağlam düşüncənin avanqardına çevrilir. Həmçinin, müqayisə üçün eyni Olaf Şolts-a baxın... Sadəcə gülməlidir. Əsl avropalı siyasətçilər haradadır? Bunlar ABŞ-ın ölməkdə olan hegemonluğu naminə öz dövlətlərinin suverenliyini və milli maraqlarını satan kuklalardır.

Bu gün dünyanın diqqət mərkəzi Qlobal Cənub deyilən yerdədir. Enerji sektorunda, nəqliyyat və logistika kompleksində. Azərbaycan bu gün ən mühüm nəqliyyat və logistika mərkəzlərindən biridir.

Qərb modeli dağılır. Və bir çox insanlar Qərbin bütün məsələləri sanksiyalarla həll etməsindən bezib. Avropanın müxtəlif şəhərlərində nümayişlərin dağıdılmasını gördükcə tərifIənən Qərb ”demokratiyası” da dağılır. Bu gün Qərbdə öz siyasətləri, şəxsi milli seçimləri, öz fikir və qərarları, öz gələcəkləri ilə yaşayacaqlarını cəsarətlə bəyan edən dövlətlərin vaxtıdır. Başqasının diktəsi ilə deyil, öz seçiminizlə.

Müqayisə üçün qeyd edək ki, Ermənistan yeni dünya ilə ayaqlaşmaqda nəinki bu tendensiyanı izləmir, həm də geri qalır. Və o, öz suverenliyini Qərbə satmaq qərarına gəldi. O, mahiyyət etibarı ilə Fransanın müstəmləkəsinə çevrilib və get-gedə bütün Qərbin müstəmləkəsinə çevrilir, Rusiya və Azərbaycana qarşı öz dəstəyini axtarır. Baxmayaraq ki, ölkələrimiz, əksinə, Ermənistanın özü üçün faydalı olan mənalı, konstruktiv qarşılıqlı fəaliyyət və inkişaf gündəliyi təklif edirlər. Hətta Afrika bu gün müstəmləkəçilik buxovlarını atır, Ermənistan isə öz iradəsi ilə qul buxovlarını taxaraq onları əldə edir.

Azərbaycan keçmişinin tarixi- sadəcə nefti olan kiçik bir ölkənin tarixi artıq keçmişdə qalıb. Bu gün hər kəsin hesablaşmalı olduğu dövlətdir. Xüsusilə unikal- bu, yaxın tarixdə görünməmiş bir haldır ki, dövlət öz ərazi bütövlüyünü təkbaşına alır və bərpa edir. Son vaxtlara qədər dünyada norma hesab edilən Avropa dövlətləri bunu edə bilməz. Azərbaycanın bu günə çevrildiyi unikal vəziyyət isə İlham Əliyevin xidmətləridir. Ümid edirik ki, Avropa ayılacaq, o, qismən oyanmağa başlayıb. Azərbaycan isə onlar üçün nümunə olmalıdır. Avropanın suverenliyini itirməsi fonunda bu kiçik Cənubi Qafqaz dövləti özünü elan edə bildi. Və özünə hörmət etməyi tələb edir. Və o, uğur qazanır.

Heç kim inkar etməyəcək ki, bu yaxınlara qədər Azərbaycan hakimiyyəti Avropa və Amerika platformalarında Ermənistanla görüşlərdə iştirak etməyə razılıq verib. Bunu ona edirdi ki, axırda sülh naminə hər hansı bir əlaqənin mənası ola bilərdi. Amma göz qabağındadır ki, Azərbaycan öz suverenliyini bərpa etdikdən, Qarabağı qaytardıqdan, ərazi bütövlüyünü bərpa etdikdən sonra Azərbaycan hakimiyyəti əvvəllər Aİ-nin müxtəlif strukturlarından öz ünvanlarına səsləndirilən və əsassız tənqidlərə getdikcə daha açıq şəkildə cavab verməyə başladı. Gördüyümüz kimi, indi Azərbaycan hakimiyyəti açıq şəkildə ABŞ-ı iki dəfə öz yerinə qoyub. Yəni hər şey, vəziyyət dəyişib. İndi Aİ və ya ABŞ-ın davranışı Azərbaycanın xoşuna gəlmirsə, Bakı Ermənistanla sülh üçün onların təklif etdikləri sözdə vasitəçilik platformalarını dinamitləndirəcək. Bakı artıq anlayırdı ki, Qərbin regionda öz marağı var, lakin buna açıq reaksiya verə bilmirdi. İndi Azərbaycan birbaşa ABŞ-a deyir ki, siz Ermənistan-Azərbaycan nizamlanması və Azərbaycanla bağlı mövqeyinizi dəyişməyincə, vasitəçilik səyləri yalnız xəyal olaraq qalacaq. Bu, ABŞ-ın nüfuzuna açıq-aşkar zərbədir, bu, onların vasitəçiliyinə, ABŞ siyasətinə zərbədir.

ABŞ böhran yaşayır. Onlar özlərinə baxmalıdırlar: niyə bu gün başqa ölkələr onlarla belə davranır? Çünki problemlər sizdədir, nə Rusiyada, nə Çində, nə də Azərbaycanda. Nə də Türkiyədə. Hər kəs sənin yaratdığın illüziyada yaşamaqdan yorulub. Dünya dəyişdi. Bu gün Azərbaycan yeni dünya sisteminin önündədir.

Birləşmiş Ştatlar dünyanı həmin vəziyyətə, lider olduqları və öz dünya nizamını qurduqları zaman ehtiyac duyduqları çərçivəyə qaytarmağa çalışır. Amma bu sistem daha işləməyəcək. Ən azından yaxın gələcək üçün.

Putin, Ərdoğan, Si Cinpin, Əliyev və Orban bu gün eyni sırada durular. Bunlar yeni formasiyanın siyasətçiləridir. Bunlar indi dünya liderləridir. Və Bayden bu gün Qərb hegemonluğunun dağılan və köhnəlmiş siyasətini təcəssüm etdirir. Qarışdıranda yumruğunu silkələməyə çalışır, amma bu, artıq gülməli görünür. Onlara hörmət edilə bilər, amma artıq ciddi qəbul edilmirlər.

**- Paşinyan bu yaxınlarda müsahibəsində Vladimir Putini tənqid etdi. Deyir ki, Rusiya lideri hələ 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsindən sonra demişdi ki, beynəlxalq hüquq baxımından Qarabağ Azərbaycandır. İndi Paşinyan Rusiya liderini guya üçtərəfli bəyanatı pozmaqda ittiham edir... Deyirlər ki, bəyanatın bəndlərində Qarabağ məsələsi yer almayıb...**

- Yaxşı, amma Paşinyan özü də deməyib ki, Qarabağ Azərbaycandır? Bu, beynəlxalq səviyyədə qəbul edilmiş faktdır ki, Qarabağ məhz bu beynəlxalq hüquq baxımından Azərbaycandır. Və o zaman Rusiya lideri 2020-ci ilin payızında hətta Ermənistanın da DQR adlı separatçı rejimi tanımadığını vurğuladı. Paşinyan Vladimir Putini beynəlxalq qanunlara əməl etdiyinə görə qınamaq istəyirmi? Bu absurddur.

Ermənistanın baş naziri Rusiya liderini ittiham edib ki, guya Rusiyanın özü Qarabağla bağlı üçtərəfli bəyanata əməl etmir. Deyirlər ki, üçtərəfli bəyanatda Qarabağ məsələsi öz əksini tapmayıb, amma Qarabağla bağlı məsələ bitib, Azərbaycanın nəzarətinə keçib və Rusiya hər şeydən razıdır. Deməli, Ermənistan özü 3 il ərzində üçtərəfli bəyanata əməl etməyib. Biz nədən danışırıq?

Cənab Paşinyan yalan danışır. Rəsmi İrəvan Ermənistan rəhbərliyinin imzaladığı istənilən sənədi istədiyi kimi şərh edir.

Ermənistan rəhbərliyi axmaq adamlar deyil. Lakin onlar Qərb idarəçiləri tərəfindən müəyyən edilmiş qaydaların girovuna çevrildilər ki, bu da Ukrayna ilə mövcud vəziyyətə qismən bənzəyir. Paşinyan şəxsiləşəndə, görünür, onun ABŞ timsalında "təhlükəsizlik yastığı" olduğunu düşünür. Azərbaycan ABŞ-ı tənqid edəndə bunu başa düşmək olar. İrəvan Rusiyanı tənqid edəndə, onun Qərbə olan istəyinin apoteozunda şəxsiləşəndə bu, artıq qəribədir. Özbaşına heç nə edə bilməyən ölkə. Paşinyan müstəqil siyasətçi deyil və ona əmr olunanı edir.

**- Maraqlıdır ki, ötən həftə Rusiya və Ermənistan İrəvanda iki ölkə mətbuatında ikitərəfli münasibətlərlə bağlı bəzi şərhlərlə bağlı yaranan problemlərin qarşılıqlı surətdə həll edilməsi barədə razılığa gəliblər. Amma dünən Ermənistanda ”Sputnik” radiosunun qanunu pozduğuna görə bir ay müddətinə bloklandığı barədə məlumat yayılıb...**

- Adətən anti-Rusiya adlandırılan Gürcüstanda həmin ”Sputnik” özünü əla hiss edir və işləyir. Paşinyan yenə də özünün necə müstəqil, suveren ölkəyə malik olduğunu göstərməyə çalışır, görünür, ”sağlam düşüncədən asılı olmayaraq”... Bu, Rusiyaya qarşı siyasi demarşdır.

**Tərcümə - Elçin Bayramlı**

SƏS
23 dekabr
2023-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# <u>DİQQƏT:</u> Taksi sürücüləri mütləq oxusun!



**Azərbaycanda vətəndaşlar bəzi hallarda taksi sürücülərindən narazılıq edir. Avtomobili spirtli içki və narkotik vasitənin təsiri altında idarə edən, sərnişinlərə əxlaqsız təkliflər edən sürücülərin bu fəaliyyətlə məşğul olduğu da bildirilir. Azərbaycanda taksi xidməti necə tənzimlənir? Taksi sürücüsü işləmək üçün hansısa lisenziya tələb olunurmu? SİA mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspertlərin fikirlərini alıb.**

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev bildirib ki, pandemiya dönəmində qeyri-qanuni sərnişindaşıma taksi fəaliyyətində də aktivlik müşahidə olunmuşdu: ”Bunun da fərqli fəsadları oldu. Fəsad həm də dempinqlə bağlı idi. Süni şəkildə qiymətin aşağı düşməsi keyfiyyətin aşağı düşməsinə gətirib çıxardı. Bu həm sürücülər həm də sərnişinlər arasında narazılıqlar yaratdı. Sürücülərin bir çoxunda mənfi hallar müşahidə olundu. Hətta narkotikdən istifadə edənlər, özünü qeyri-etik aparanlar da olmuşdu. Bu hallar mediada da işıqlandırılmışdı. Bununla bağlı sentyabrda Nazirlər Kabinetinin bir qərarı çıxmışdı ki, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi keyfiyyət parametrləri müəyyən etsin 4 ay ərzində bunu icra etsin.

Ekspert qeyd edib ki, AYNA öz növbəsində sürücülər üçün təlimlər keçirir: ”Bir çox mənfi halları aradan qaldırmaq, yeni texnologiyalarla işləmə bacarığını təşkil etmək, bir sözlə keyfiyyətin artırılması üçün istiqamətində təlimlər keçirilir. Həmçinin sürücülük vərdişlərinin təkrarlanması yaxud öyrədilməsi mənasında da bu təlimlərdə müəyyən yerlər ayrılıb. Bundan sonrakı məqamda təlimdən alınmış sertifikat əsasında AYNA-nın elektron sistemi vasitəsilə müvafiq icazələr alınır və bu icazələr 7 illik taksi fəaliyyətində işləməyə səbəb olurdu. Bu təlimlər artıq keçirilir. Amma sırf sərtləşdirilmiş qaydaların icrası düşünürəm ki, yanvarın 1- dən qüvvəyə minəcək. Bu da birbaşa həm bugünkü taksi bazarında ümumi saya də təsir edəcək və keyfiyyətin yüksəldilməsinə gətirib çıxaracaq. Artıq taksi sürücüləri təlimlərə müraciət edir və bundan sonrakı mərhələ onların sertifikat almasıdır. Bu da yekun olaraq keyfiyyətin artırılmasına kömək edəcək”.

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlının sözlərinə görə, taksi sürücüləri arasında neqativ hərəkətlərlə diqqət çəkən insanlar da var: ”Qadınlara sataşanlar, əxlaqsız təkliflər edənlər, spirtli içkinin, narkotik vasitənin təsiri altında sükan arxasında oturanlar var. Yolu tanımadan bu fəaliyyətlə məşğul olanlar var. Ona görə narazılıqlar çoxaldı deyə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təkliflər irəli sürüldü ki, taksi fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac var. Bu qaydalar artıq təsdiqlənib”.

Ekspert qeyd edib ki, taksi sürücüləri mütləq tibbi müayinədən keçməli, təhsil almalı, müvafiq sertifikat əldə etməlidirlər: ”Sürücülər buraxılış kartı, buraxılış vərəqəsi, eyni zamanda fərqlənmə nişanı əldə etdikdən sonra taksi fəaliyyət göstərə bilərlər. Bir növ onların üzərində nəzarət formalaşır və getdikcə günün tələblərinə uyğun, daha ciddi nəzarət mexanizmləri tətbiq oluna bilər. Düşünürəm ki, yanvar ayından bu proses başlayacaq və dediyimiz bu iyrənc, xoşagəlməz hallar get-gedə aradan qalxacaq”.

***Rəşid Qarayev***

# Ər-arvad maşınlarını etibarnaməsiz sürə bilər?

## AYDINLIQ GƏTİRİLDİ





“Nikah şəhadətnaməsi ər-arvad üçün həm də etibarnamədir. Əgər ər və arvadın nikah şəhadətnaməsi varsa, etibarnamə olmadan ikisi də digərinin avtomobilini sürmək hüququna malikdir”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

O, sözlərinə belə davam edib: ”Nikah dövründə əldə olunmuş əmlak ər-arvadın ümumi birgə mülkiyyəti hesab olunduğundan nikahdan sonra alınmış avtomobilin qeydiyyat şəhadətnaməsində kimin adının yazılmasının əhəmiyyəti yoxdur.

Ailə Məcəlləsinin 32-ci, Mülki Məcəllənin 225-ci maddələrinə əsasən ər və arvadın birgə nikah dövrlərində əldə etdikləri bütün əmlaklar hər ikisinə aiddir. Konstitusiya Məhkəməsinin ”ər-arvadın rəsmi reyestrdə qeydə alınmalı olmayan ümumi daşınar əmlakı üzərində sərəncam əqdini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki, o digərinin razılığı ilə həyata keçirir.

Qeydiyyat şəhadətnaməsində onlardan birinin adı varsa, o biri də sürə bilər. Bu hüquq ailə üzvlərindən yalnız ər-arvada aid edilir. Bu hüquq övlad üçün keçərli deyil. Bunu sübut etmək üçün sənəd tələb olunduğu zaman nikah şəhadətnaməsi təqdim edilməlidir. Nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxsin özünün şəxsən nəqliyyat vasitəsində olmadığı hallarda maşını idarə edənlərin yanında mütləq etibarnamə olmalıdır. Əks halda, bu, inzibati məsuliyyətə səbəb olacaq”.

***Ayşən Vəli***



# Bakının Baş Planı üzərində iş başa çatıb

## *RƏSMİ AÇIQLAMA*

**Bakının Baş Planı üzərində iş başa çatıb və tezliklə təsdiq ediləcək. SİA xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Bakı şəhərinin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi etməsinə dair Sazişin imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında bildirib.**

”Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar mütəxəssislərin Bakıya gəlmək imkanı olmayıb, odur ki, məsələ bir az uzanıb. Sənəd hazırdır. Bir qədər əvvəl Bakıda və Sumqayıtda müəyyən sərhəd dəqiqləşmələri olub və bu məsələlər Baş Plana daxil edilib, yaxın günlərdə sənəd Nazirlər Kabinetinə yenidən təqdim ediləcək və tezliklə təsdiq olunacaq”, - deyə o qeyd edib.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
**Tiraj: 4000**